D İ Q Q Ə T !

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.

**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 183 (6147) 16 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür ki, biz istənilən anda bir-birimizin yanındayıq"

*Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib*



*Bax 4*

## Ərdoğan: "Biz dayana bilmərik"

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Beştəpə Millət Konqres və Mədəniyyət Mərkəzində "2020-2021 Ali Təhsil Akademik İlinin Açılış mərasimi"ndə növbəti dəfə Azərbaycana dəstəyini ifadə edib. SİA xəbər verir ki, bu barədə "Milliyet" yazıb. "Azərbaycanda ermənilərin...*



*Bax 7*

## Ermənistan mətbuatı: Paşinyanın rəqibləri siyasi meydana dəvət olunur

*Qaqik Sarukyanın həbsdən azad edilməsi üçün Ermənistanda ictimai rəy formalaşıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Past" qəzeti yazır. Qeyd edilir ki, bütün müxalifət qüvvələri eyni bu fikir ətrafında birləşib. "Mövcud vəziyyətdə parlamentin ikinci ən böyük fraksiyasının lideri, "Çiçəklənən...*



*Bax 14*

## Paşinyan oğlunu Qarabağdan qaçırdı!



*Ermənistanın baş naziri Nikol Paşinyan oğlu Aşotun Qarabağda vuruşması ilə bağlı az qala hər gün danışır, bunu xüsusilə vurğulayır. Aşot Paşinyan da son günlərdə Ermənistanın müxtəlif telekanallarının "gənc ulduz"una çevrilmişdi. O, gah əlində avtomat səngərdə o yan bu yana qaçır, gah mazğalın...*

*Bax 7*

## Ermənilər Tərtərdə dəfn mərasimində əhalini atəşə tutdu: 4 nəfər öldü

*Dünən saat 13 radələrində düşmən tərəfin silahlı birləşmələri tərəfindən Tərtər şəhər qəbiristanlığının dəfn mərasimi keçirilərkən qəsdən ağır artilleriyadan intensiv atəşə tutulması nəticəsində ölənlərin sayı 4-ə çatıb. Hadisə zamanı yaralananlardan biri - 1967-ci il təvəllüdlü Əmirov İsgəndər...*



*Bax 7*

### Müdafiə Nazirliyi: Azərbaycan təyyarəsinin vurulması xəbəri dezinformasiyadır



*Bax 12*

### "Müstəqilliyimizin son 17 ilindəki tarix bizim qürur tariximizdir"



*Bax 12*

### Neymar Braziliya millisində yeni rekord müəyyənləşdirib



*Bax 11*

# İlham Əliyev: “Biz həmin səhifəni bağlamışıq”

## *Prezident İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib*

Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

***- Salam, “France 24”ün müsahibə rubrikasına xoş gəlmisiniz. Bu gün biz Azərbaycanın paytaxtı Bakı şəhərindəyik və mən Azərbaycan Prezidenti İlham Əliyevin yanındayam. Prezident Əliyev, bizim suallarımızı cavablandırmağa razılıq verdiyiniz üçün çox sağ olun. Əlbəttə ki, mən Sizdən Dağlıq Qarabağ münaqişəsi haqqında soruşacağam. Humanitar atəşkəs kimi nəzərdə tutulan atəşkəs barədə razılıq imzalandıqdan bəri zorakılıq və müharibə davam etmişdir. Bu gün Sizdən soruşuram, bu atəşkəs rəsmən artıq etibarsız, bitmiş və ləğv edilmiş hesab olunur?***

- Bu, Ermənistanın davranışından asılıdır, çünki biz həmişə öhdəliyimizə sadiq qalırıq. Bildiyiniz kimi, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyadan gəlmişdir və biz bunu dəstəklədik. Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir. Bu, həmişə bizim mövqeyimiz olub. Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir. Digər məsələlərlə birlikdə bəyannamənin ən mühüm hissəsi ondan ibarətdir ki, danışıqların formatı dəyişməz olaraq qalacaq. Bu, çox önəmlidir. Ola bilsin, bunun geniş beynəlxalq auditoriya üçün nə anlam daşıması o qədər aydın deyil. Mən, əlbəttə, bu barədə daha ətraflı məlumat verəcəyəm. Çünki Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra son iki il ərzində fəaliyyətlərindən biri qondarma “Dağlıq Qarabağ respublikasının hökumətini” danışıqlar masasına cəlb etmək və beləliklə də danışıqların formatını dəyişmək idi. Çünki iyirmi ildən artıqdır ki, danışıqlar Minsk qrupu prosesi çərçivəsində Ermənistan və Azərbaycan arasında aparılır. Odur ki, qondarma “Dağlıq Qarabağ respublikası hökumətini” danışıqlara cəlb etmək səyləri formatı dəyişdirmək cəhdləri idi. Beləliklə, hər iki tərəf formatın dəyişməz olaraq qalmasına sadiq qaldıqda, bu, hər şeyin əvvəllər razılaşdırılmış çərçivədə olacağı deməkdir. Biz atəşkəs rejiminə əməl edirdik. Lakin bildiyiniz kimi, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və bu, təkcə Gəncədə baş verməyib. Gəncədə mülki vətəndaşlara hücum onların təcavüzkar siyasətini



> “Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir”

əks etdirir. Həmçinin onlar atəşkəsi hər gün pozurlar. Bu gün mənə məlumat verilmişdir ki, bu səhər saat 7-dən 9-a qədər onlar Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutublar. Əfsuslar olsun ki, bu gün Tərtərdə mülki şəxslər arasında bir nəfər həlak olub.

***-Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Stepanakertdə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb.***

-Atəşkəs elan olunandan bəri Azərbaycan tərəfindən bütün artilleriya atəşi dayandırılmışdır. Bu, birincisi. İkincisi, biz işğal olunmuş ərazilərdə istənilən şəhərdə və ya kənddə qəsdən mülki şəxsləri heç vaxt atəşə tutmuruq. Bizim hədəflərimiz yalnız hərbi qurğular idi. Bizim hərbi hədəflərimiz çox diqqətlə müəyyən olunmuşdur. Odur ki, biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik.

***- Beləliklə, Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?***

- Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır.

***- Bəs, Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil.***

- Bəli, siz haqlısınız. Biz bu məsələni araşdırırıq. Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zatimüqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir. Siz yəqin ki, Bakının mərkəzində olan, tərəfimizdən bərpa edilmiş erməni kilsəsini görmüsünüz. Biz onu erməni xalqının mirası kimi qoruyuruq. Biz bu kilsədə erməni dilində 5000-dən artıq qədim kitab saxlayırıq. Lakin Ermənistan bizim məscidlərimizə nə edib? Onlar Ağdamın, Füzulinin və Şuşanın məscidlərinə nə ediblər? Deməli olar ki, onlar nəinki onları dağıdıblar, orada heyvan saxlayırlar. Onlar orada donuz saxlayırlar və bununla təkcə bizim deyil, bütün müsəlmanların hisslərini təhqir edirlər.

Mən demirəm ki, biz bunu qisas almaq üçün etmişik. Xeyr. Biz bu məsələni araşdırmalıyıq. Biz nə baş verdiyindən əmin deyilik. Bizi günahlandırmaq üçün bunun ermənilər tərəfindən törədilə biləcəyinə dair şübhələrimiz var. Əgər bu, Azərbaycan hərbi birləşmələri tərəfindən törədilibsə, bu, səhv olub. Bizim hədəflərimiz arasında heç bir tarixi və ya dini hədəf yoxdur.

***- Mən indi Sizdən diplomatik proses barədə soruşmaq istəyirəm. ATƏT-in Minsk qrupu, hazırkı həmsədrlər olan Fransa, ABŞ və Rusiya ilə vasitəçilik davam edir. Sizcə Fransanın bu danışıqlarda həmsədr qalması ilə bağlı bu struktur qalmalıdır?***

- Bilirsiniz ki, toqquşmaların əvvəlindən biz bəzi ziddiyyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi, Prezident Makron mənə bir neçə dəfə telefonla zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik. Mənə məlumat verildi ki, Fransa həmsədr olaraq neytral qalacaq, çünki bu, həmsədrin mandatıdır. Bu səhər mənə məlumat verildi ki, Fransanın Xarici İşlər naziri bəyanat verib ki, Fransa Minsk qrupunun həmsədri olduğuna görə neytral olmalıdır. Biz bu mövqeyi tam dəstəkləyirik və bizim mövqeyimiz hər zaman belə olub ki, bütün həmsədrlər neytral olmalıdır, onlar tərəf tutmamalıdırlar. Çünki bu, onların mandatına ziddir. Hər bir ölkənin milli səviyyədə müttəfiqləri, dostları var, bəzi ölkələrlə daha fəal, bəzi ölkələrlə daha az fəal əlaqələri var. Bu, normaldır və heç kim buna etiraz etmir.

Ardı Səh. 3

# İlham Əliyev: “Biz həmin səhifəni bağlamışıq”

*Prezident İlham Əliyev “France 24” televiziya kanalına müsahibə verib*

**Əvvəli Səh. 2**

Lakin əgər bəzi ölkələrin vasitəçilik mandatı varsa, əlbəttə, əminəm ki, hər iki tərəf - Ermənistan və Azərbaycan neytrallıq gözləyir və hazırda biz bu neytrallığı görürük. Ona görə də, düşünürəm ki, sizin indi qeyd etdiyiniz məsələ bitib, beləliklə, biz həmin səhifəni bağlamışıq.

***- Əvvəlki müsahibələrinizdə Suriyadan 300 döyüşçünün Sizin tərəfinizdə vuruşmaq üçün gətirildiyinə dair açıqlamasından sonra Siz Emmanuel Makrondan üzrxahlıq tələb etmişdiniz. Siz onunla sonuncu dəfə söhbət edən zaman bu məsələ haqqında - onun muzdluların Sizin tərəfinizdə döyüşməyi ilə bağlı ittihamı barədə danışdınızmı?***

- Bəli, əlbəttə ki. Biz bu barədə danışdıq və mən hələ də dəlil gözləyirəm. Mənə heç bir dəlil təqdim olunmayıb. Bizim digər rəsmilərə heç bir dəlil təqdim olunmayıb. Mən Fransa Prezidentindən dəlil təqdim etməyi və danışmaq, bu məlumatı mübadilə etmək üçün müvafiq dövlət qurumlarının rəhbərləri arasında təmaslar təşkil etməyi xahiş etdim. Bu təmas baş tutdu və sizə deyə bilərəm ki, bizə heç bir dəlil təqdim olunmayıb. Ona görə əgər heç bir dəlil yoxdursa, düşünürəm ki, bu şayiələr də keçmişdə qalmalıdır. Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir.

***- Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?***

- Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil.

***- Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?***

- Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır.

***- Lakin onlar bu münaqişədə öz sözünü deyirlər?***

- Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə. Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu, onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır onlar bütün bu avadanlığı almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər.

***- Təəssüf ki, biz burada yekunlaşmalıyıq. Əlbəttə, Sizə verə biləcəyimiz o qədər çox suallarımız var idi. Prezident İlham Əliyev, bu gün suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirəm. Biza baxan tamaşaçılara da təşəkkür edirəm. Qarşıda yayımlanacaq beynəlxalq xəbərlərə baxmaq üçün “France 24”ü izləməyə davam edin.***

- Təşəkkür edirəm.

***- Təşəkkür edirəm. Sizinlə söhbət etmək çox maraqlı idi.***

***“Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır”***



## Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının bir neçə kəndini işğaldan azad edib

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində yazıb.

## Əl-Savvağ: Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlər insan haqlarının açıq şəkildə pozulmasıdır

***Küveyt Dövlətinin Elektron Media Birliyinin rəhbəri, bu ölkənin “Dasmannews” onlayn xəbərlər portalının idarə heyətinin sədri Feysal Xəlifə əl-Savvağ Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və mülki şəxslərin hədəfə alınmasını pisləyən bəyanat yayıb.***




Azərbaycan Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Feysal Xəlifə əl-Savvağ Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü və mülki şəxslərin hədəfə alınmasını pisləyərək, beynəlxalq ictimaiyyəti qətiyyətli, sərt mövqe nümayiş etdirməyə və həmin cinayətlərə görə işğalçını cəzalandırmağa çağırıb.

Əl-Savvağ bildirib ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlər beynəlxalq hüququn və insan haqlarının açıq şəkildə pozulmasıdır.

Elektron Media Birliyinin rəhbəri beynəlxalq ictimaiyyətin susmasının, həmin təxribatları dəstəkləyən ölkələrin mövqelərinin qəbuledilməz olduğunu bildirib, mövcud vəziyyətin, sözün əsl mənasında, faciə olduğunu vurğulayıb.

Qeyd edilib ki, beynəlxalq ictimaiyyət və beynəlxalq hüquq Azərbaycanın hüquqlarının müdafiəsi üçün əsl çağırışla üz-üzədir. Hazırda Ermənistan tərəfindən törədilən təxribatlar müharibə cinayəti və soyqırımıdır.

Əl-Savvağ hadisələrin gərginləşəcəyindən və çoxsaylı tərəflərin müdaxiləsi ilə problemin regional və beynəlxalq qarşıdurmaya çevrilməsindən ehtiyatlanmağa çağırış edərək, baş verənləri dayandırmaq üçün Birləşmiş Millətlər Təşkilatından və digər aidiyyəti qurumlardan dərhal dialoqun başladılmasını, mülki şəxslərin hüquqlarının qorunmasını tələb edib.

## Misirin informasiya portalı Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsindən sitatlar yayıb

Misirin “Egyptonline” informasiya portal Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibəsindən sitatlar yayıb.




AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının rəsmi Yerevanın çirkin avantürist siyasəti nəticəsində işğalçı ölkənin ordusunun dağılması, ağır iqtisadi və sosial böhran keçirən Ermənistanın məğlubiyyətə uğraması, çarəsizlikdən mülki obyektləri və dinc əhalini hədəfə alması barədə fikirləri Misir ictimaiyyətinə çatdırılıb.

Xəbərdə vurğulanıb ki, Azərbaycan Prezidenti cəmi 1,5 milyard dollar valyuta ehtiyatına malik və 8 milyard dollar xarici borcu olan Ermənistanın artıq bir dövlət kimi iflasa uğradığını, müharibənin davam edəcəyi təqdirdə bütün ordusunun məhv ediləcəyini bildirib.

# “Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür ki, biz istənilən anda bir-birimizin yanındayıq”

## *Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Türkiyənin NTV televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



> “Bu gün Türkiyənin iştirakı olmadan bu bölgədə hər hansı bir məsələ həll edilə bilməz. Bunu artıq son illərin tarixi göstərmişdir. Bu, kiminsə xoşuna gələ bilər, gəlməyə bilər, bu, faktdır, bu, gerçəkdir”

***- Cənab Prezident, əvvəlcə NTV adından Sizə çox təşəkkür edirəm. Belə bir tarixi dövrdə - həm bölgə üçün, həm Azərbaycan üçün əhəmiyyətli günlərdə bu sıx qrafikinizdə bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm.***

- Sağ olun.

***- Birinci sualım cəbhə xətti ilə bağlı olacaq, cənab Prezident. İşğal altındakı ərazilərin sentyabrın 27-dən bəri nə qədəri geri alındı? Çünki son iki gündə gözəl xəbərlər gəlməyə başladı.***

- Bəli, xəbərlər gəlir. Azərbaycan Ordusu demək olar ki, hər gün uğurlu əməliyyatlar keçirir. Bu əməliyyatlar haqqında ictimaiyyətə də məlumat verilir. Bizim əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Ona görə döyüş meydanında da əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır.

Dünən mənim tərəfimdən verilən açıqlama Azərbaycan xalqını növbəti dəfə sevindirdi. Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndi işğalçılardan azad edildi. Onu da deyim ki, həm şimal, həm cənub və həm də şərq istiqamətlərində strateji yüksəkliklər artıq bizim nəzarətimizdədir.

Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir.

***- Zənnimcə, Xankəndinə yaxınlaşdınız.***

- Biz əsas əməliyyatları indi şimal, cənub istiqamətlərində aparırıq. Bildiyiniz kimi, Cəbrayıl şəhərinin işğaldan azad edilməsi çox uğurlu əməliyyat nəticəsində baş vermişdir. Cəbrayıl rayonunun kəndlərinin böyük qismi artıq bizdədir. Eyni zamanda, Füzuli rayonunun bir çox kəndlərini işğalçılardan azad etdik. Əminəm ki, yaxın zamanlarda Füzuli rayonundan da çox yaxşı xəbərlər gələcək. Eyni zamanda, şimal istiqamətində Suqovuşan qəsəbəsinin işğalçılardan azad edilməsi də çox uğurlu əməliyyat nəticəsində baş vermişdir. O da strateji əhəmiyyətə malikdir. Çünki orada həm yüksəkliklər böyük əraziyə nəzarət etməyə imkan yaradır, həm də orada çox önəmli su anbarı yerləşir. Eyni zamanda, Ermənistan bizə qarşı, su terroru təşkil etmişdir və bizim yüz mindən çox hektar torpağımızda su yox idi. Biz artezian quyuları qazmalı idik. İndi Suqovuşan qəsəbəsində yerləşən anbar bizim nəzarətimizə keçəndən sonra artıq böyük bir əraziyə su verilir.

Ona görə biz əməliyyatımızı tədricən, vahid bir planlama əsasında aparırıq. Bütün hədəflər seçilib. Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin.

***- Cənab Prezident, soruşmaq istərdim, hələ də atəşkəsdən söhbət getməsi mümkündürmü? Gördüyümüz kimi, Ermənistan atəşkəsə əməl etmir, - Gəncəyə hücum zamanı mən də Gəncədə idim, - əməl edəcək kimi də görünmür. Bu atəşkəs Azərbaycan Ordusunun sürətini azaltdımı? Bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz, biz vasitəçilərə çox böyük bir jest etdik. Çünki bilirsiniz ki, ilk günlərdən bizə atəşkəslə bağlı müxtəlif yerlərdən mesajlar gəlirdi. Təbii ki, dünyanın öz qaydaları var, müharibənin öz qaydaları, öz qanunları var. Əgər sənə kimsə hücum edirsə, sən öz torpaqlarını, öz əhalini müdafiə etməlisən. Bildiyiniz kimi atəşkəs rejiminin tətbiq edilməsinin əsas səbəbi humanitar məsələlərdir. Bu istiqamətdə müəyyən işlər aparıldı. Biz cəsədlərin dəyişdirilməsi istiqamətində çox önəmli addımlar atdıq. Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara təşkilatını bu işlərə cəlb etdik. Ancaq təəssüf ki, Ermənistan bu atəşkəsdən istifadə edərək, bunu istismar edərək bizə yeni hücumlar təşkil etdi. Təkcə Gəncə şəhəri deyil, digər şəhər və kəndlərimiz də bombalandı. Bu, müharibə cinayətidir, bu, terror aktıdır. Ermənistan terror ölkəsi kimi bir daha öz sifətini bütün dünyaya göstərdi, eyni zamanda, döyüş meydanında da. Atəşkəsdən sonra onlar bu imkanlardan istifadə etmək istədilər və Hadruta iki-üç dəfə hücum etdilər, Hadrutu yenidən işğal etməyə çalışdılar. Amma buna nail ola bilmədilər və orada çox böyük canlı qüvvə və texnika itirdilər. Digər istiqamətlərdə - Cəbrayıl rayonunda, Cəbrayılın cənub istiqamətində Araz çayı boyunca bizə qarşı yenə hücumlar təşkil edilmişdir. Bütün bu hücumlar təbii ki, dəf edildi. Bütün bunlar onu göstərir ki, Ermənistan danışıqlar masası arxasında da səmimi deyil. Ona görə əgər Ermənistanda bu çirkin siyasət davam edərsə, onlar özləri peşman olacaqlar. Mən bu döyüşlərin ilk saatlarından onlara və erməni xalqına müraciət edərək demişdim ki, bu torpaqlardan sülh yolu ilə çıxın, qan tökülməsin, insanlar həlak olmasın. Ancaq təəssüf ki, Ermənistan buna əməl etmir. Bu gün döyüş meydanında Ermənistan ordusunun tam darmadağın olmasında əsas günahkar Ermənistanın hərbi-siyasi rəhbərliyidir.

***- Qarabağ probleminin həllində Türkiyənin də iştirakının vacibliyinə dair Sizin açıqlamanız var. Dünən cənab Ərdoğan ilə Putinin danışığından sonra Minsk qrupu və ikitərəfli əlaqələr çərçivəsində həllə dair Ankarada açıqlama verildi. Ancaq dünən Sergey Lavrov etiraz etdi, dedi ki, Türkiyə ilə biz - Rusiya Qarabağ məsələsində fərqli mövqelərdəyik. Nə düşünürsünüz? Rusiya nə üçün Türkiyənin prosesə daxil olmasına, - bunu Siz də dəstəkləyirsiniz, - etiraz edir? Bu mövqe ilə nə demək istəyir?***

- Onu onlardan soruşsanız daha yaxşı olar. Mən onların bu açıqlamalarını şərh etmək istəməzdim. Sadəcə olaraq, biz mövcud reallıqları gərək nəzərdən keçirək. Bu reallıqlar, həqiqi vəziyyət ondan ibarətdir ki, bu gün Türkiyənin iştirakı olmadan bu bölgədə hər hansı bir məsələ həll edilə bilməz. Bunu artıq son illərin tarixi göstərmişdir. Bu, kiminsə xoşuna gələ bilər, gəlməyə bilər, bu, faktdır, bu, gerçəkdir. Təbii ki, Türkiyə Azərbaycanın, Ermənistanın və digər Cənubi Qafqaz ölkəsi olan Gürcüstanın qonşusu olaraq bu bölgədə fəal rol oynayır. Bu, Türkiyənin haqqıdır. Bu, tarixən belə olubdur. Biz tarixi yaxşı bilirik.

Ona görə bu döyüşlərin ilk saatlarından onu hərbi müstəvidən siyasi müstəviyə, siyasi prosesə çevirmək üçün biz çox açıq və dəqiq mövqeyimizi bildirdik ki, Türkiyə mütləq bu işlərdə olmalıdır. Əgər olarsa, o zaman bu döyüşlər daha tez bir vaxtda dayanacaq və sülh prosesi başlayacaq. Mən onu da bildirmişdim ki, faktiki olaraq Türkiyə prosesdə var.

***Ardı Səh. 5***

# “Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür ki, biz istənilən anda bir-birimizin yanındayıq”

## *Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib*

Əvvəli Səh. 4

Çünki dünən cənab Ərdoğanın və cənab Putinin danışığı bunu göstərir. Eyni zamanda, ondan əvvəlki günlərdə Türkiyənin və Rusiyanın Xarici İşlər nazirlərinin, Müdafiə nazirlərinin də telefon danışıqları olub. Onlar Qarabağ mövzusunu müzakirə edirlər.

Ona görə bizim mövqeyimiz bundan ibarətdir ki, Türkiyə mütləq olmalıdır. Hansı statusda olacaq, bu, texniki məsələdir. De-fakto artıq Türkiyə var. Onsuz da Türkiyə Minsk qrupunun üzvüdür. Minsk qrupu da otuz il ərzində bir nəticəyə nail olmadı, otuz il ərzində Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsinin icra olunmasına kömək etmədi. Bu vəziyyət faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxardı. Ancaq nəticə etibarilə iyul ayında bizə edilən hücum, avqust ayında erməni təxribatçı qrupunun bizə göndərilməsi və nəhayət, sentyabr ayında genişmiqyaslı hücum göstərdi ki, bu münaqişə dondurulmuş məsələ deyil.

Biz mövqeyimizdə qalırıq və əlbəttə, ümid edirik ki, bu məsələ tez bir zamanda masa arxasında həll edilsin. Türkiyə mütləq bu işlərdə fəal rol oynamalıdır və əminəm ki, oynayacaqdır.

***- Yenə həmin açıqlamada dedi ki, əgər iki ölkə - Azərbaycan və Ermənistan qəbul edərsə, təmas xəttinə, yəni cəbhə xəttinə rus hərbi müşahidə heyətini göndərə bilərik. Siz buna necə yanaşırsınız? Hərbi baxımdan belə bir müşahidə heyəti yaradılacaqsa hansı ölkələr olmalıdır? Bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz, bu məsələ - sülhməramlı qüvvələrin bölgəyə gətirilməsi baza prinsiplərində təsbit olunub. Yəni, baza prinsipləri arasında bu da var. Amma bu məsələ prosesin son mərhələsində öz həllini tapmalı idi. Nəzərə alsaq ki, baza prinsipləri razılaşdırılmayıb, hələ ki, onlar, sadəcə olaraq, müzakirə mövzusudur, indidən bu məsələyə fikir bildirmək, bilmirəm, nə dərəcədə düzgün ola bilər.

Bir də ki, bu məsələ Ermənistan-Azərbaycan arasında geniş müzakirə olunmadığı üçün sülhməramlı qüvvələrin kimdən təşkil edilməsi, hansı ölkələr orada olmalıdır, bunun tərkibi necə olacaq, bu, heç müzakirə olunmayıb. Ona görə indiki şəraitdə - münaqişənin fəal mərhələsi hələ ki, davam edir, bu, hesab edirəm ki, bir qədər tezdir. Əlbəttə ki, bu işdə Azərbaycanın sözü mütləq nəzərə alınmalıdır və alınacaq. Çünki hər kəs bilməlidir ki, bu gün münaqişə Azərbaycanın torpaqlarında gedir. Beynəlxalq hüquq baxımından bu, bizim torpağımızdır, tarixi ədalət baxımından bu, bizim torpağımızdır və Azərbaycana hər hansı bir başqa ölkənin silahlı qüvvələrinin gətirilməsi Azərbaycanın razılığı olmadan mümkün deyil.

**“Yaxın vaxtlarda yeni açıqlamalar olacaq və bu onları daha da sarsıdacaq. Erməni xalqı da həqiqəti bilməlidir. Ən dəqiq məlumatı biz veririk. Ona görə erməni xalqı əgər real vəziyyəti öyrənmək istəyirsə bizə qulaq assın, bizi eşitsin”**

***- Ona görə soruşdum, misal üçün Türkiyə və Rusiya Suriyada müəyyən bölgələrdə müəyyən əməkdaşlıq edirlər, hərbi heyətlər, müşahidəçilər patrul xidməti həyata keçirir. Bəlkə gələcəkdə belə bir format təklif edilərsə, bu barədə nə deyə bilərsiniz?***

- İndidən bu barədə bir şey söyləmək istəməzdim. Çünki mən hadisələri qabaqlamaq istəmirəm. Hər bir məsələnin həlli üçün münasib zaman olmalıdır, münasib vəziyyət yetişməlidir. Bu, nə zaman olacaq, biz bunu deyə bilmərik, olacaqmı, olmayacaqmı deyə bilmərik. Amma bir şey qətidir, artıq bu hərbi qarşıdurma başa çatandan sonra təbii ki, sülhü təmin etmək üçün müəyyən beynəlxalq cəhdlər də olmalıdır. Bu cəhdlər hansı cəhdlər olacaq, siyasi cəhdlər, hərbi sahədə hansısa bir təkliflər, bunu biz nəzərdən keçirməyə hazırıq. Təbii ki, azad edilmiş ərazilərə qayıdacaq Azərbaycan əhalisi də sülh şəraitində yaşamalıdır. Onların təhlükəsizliyi təmin edilməlidir. Bax, Ermənistanın Ermənistan ərazisindən Gəncə şəhərinə törətdiyi o xain hücum göstərir ki, bu terrorçu dövlət hər şeyə əl ata bilər. Ona görə təbii ki, bu məsələ beynəlxalq müstəvidə müzakirə edilməlidir. Ancaq bunun nə zaman olacağı haqqında bir şey deyə bilmərəm.

***- Cənab Prezident, Türkiyə ilə müəyyən çərçivələrdə hərbi razılaşmalar var. Bu razılaşmalar çərçivəsində, ya da yeni razılaşmalara əsasən Azərbaycanda bir Türkiyənin hərbi bazasının qurulması fikrinə necə baxırsınız? Belə bir fikriniz varmı?***

- Bu haqda bu günə qədər bizim ikitərəfli əlaqələrdə məsələlər müzakirə olunmamışdır. Bizim Türkiyə ilə çox geniş hüquqi sənədlər bazası var. Yəni, bir çox sahələrdə bizim imzaladığımız müqavilələr qüvvədədir, o cümlədən bu müqavilələrdə hərbi sahədə işbirliyi və qarşılıqlı yardım haqqında da maddələr var. Bu, bizim haqqımızdır. Əgər belə bir vəziyyət, Azərbaycan üçün çox ciddi təhlükə yaranarsa, təbii ki, Türkiyə bizim müttəfiqimizdir və biz bu imkanlardan istifadə edə bilərik. Amma Türkiyənin hərbi bazasının Azərbaycanda yaradılması haqqında hər hansı bir müzakirə olmamışdır. Bizim hərbi sahədə işbirliyimiz ildən-ilə güclənir. Təkcə keçən il 10 birgə hərbi təlim keçirilmişdir. Bu il koronavirusa görə bir az ara verildi. Yalnız iki dəfə təlim keçirilmişdir. Ancaq bu təlimlər də bizim bölgəmizdə böyük narahatlıq yaratdı. Hesab edirəm ki, bu narahatlığın heç bir səbəbi, heç bir əsası yoxdur. Çünki bu təlimlər hər hansı bir ölkəyə qarşı hazırlıq xarakterli təlimlər deyil. Bu təlimlər bizim hərbi sahədə işbirliyimizin möhkəmləndirilməsi, Azərbaycan Ordusunun təkmilləşdirilməsi, Türkiyə Ordusunun standartlarına yaxınlaşması və Türkiyənin hərbi quruculuq sahəsində müsbət təcrübəsinin öyrənilməsi mənasını daşıyır. Ona görə Türkiyənin hərbi bazası ilə bağlı sentyabrın sonundan bu günədək beynəlxalq mediada kifayət qədər çox məlumatlar gedir. Bunun heç bir əsası yoxdur. Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür, o qədər genişşaxəlidir ki, biz istənilən anda bir-birimizin yanındayıq. Baza olsa da, olmasa da, biz Türkiyəyə güvənirik, Türkiyə isə bizə güvənir.

***- Problemin həllində Siz ya sülh yolu ilə müzakirə tərəfdarısınız, ya da müharibə apararaq bu işi həll edəcəksiniz deyirsiniz. Ruslar, Moskva isə dünən hərbi həlli qəbul etmirik dedi. Bunu necə dəyərləndirirsiniz, yəni əməliyyatı dayandırın deyirsə, dayandıracaqmısınız?***

- Bilirsiniz, biz artıq bir neçə dəfə bu məsələ ilə bağlı öz mövqeyimizi açıqladıq. Mən də bunu söylədim, yenə də mən öz fikrimdə qalıram ki, demək olar bütün yerlərdən bizə ünvanlanan mesajlar, təkcə bu dövrdə deyil, bundan əvvəlki dövrdə də bu məsələnin hərbi həlli yoxdur. Biz də buna necə deyərlər, vaxtından əvvəl heç bir reaksiya vermirdik. Onlar belə söyləyir, söyləsinlər, onların fikri budur, bizim də fikrimiz odur ki, bu, sülh yolu ilə həll olunsun. Ancaq həll olunsun. Amma biz nə gördük, bu 30 il heç bir nəticə vermədi. Otuz il ərzində bu atəşkəs rejimində Ermənistan işğal edilmiş torpaqlarda güclü mühəndis-istehkam qurğuları qurmuşdur. Bu gün Azərbaycan Ordusunun peşəkarlığı və cəsarəti nəticəsində biz o istehkamları yarırıq. Otuz il ərzində Ermənistan sülhə yox, bu torpaqları daim işğal altında saxlamağa səy göstərmişdir. Çünki əgər sən sülhə meyilli olsaydın, niyə Füzulidə, niyə Cəbrayılda, yaxud da ki, Ağdam istiqamətində bu istehkamları qurursan? Qurursan ki, daim bu torpaqları öz nəzarətin altında saxlayasan. Yəni, bu sülh, atəşkəs prosesi buna gətirib çıxardı. Ondan sonra Ermənistan rəhbərliyi daha da azğınlaşdı. Baxın, Paşinyan nələr söyləyirdi, onun müdafiə naziri nə söyləyirdi? Müdafiə naziri söyləyirdi ki, biz Azərbaycanla yeni müharibə aparacağıq, yeni torpaqlar uğrunda yeni müharibə. Bu, bizə qarşı açıq hədə idi. Paşinyan deyirdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Yəni ki, bir santimetr torpaq bizə verilməyəcək. O zaman hansı sülh yolları ilə bunun həlli mümkündür? Mən isə deyirdim ki, biz indi məsələnin hərbi yollarla həlli prosesindəyik. Biz istəyirik ki, bu proses nə qədər tez olsa bitsin və ondan sonra diplomatik proses başlasın. Yəni, bizim yanaşmamız budur ki, bu məsələ hərbi-siyasi yollarla çözülsün. Tək hərbi yolla həll edilə bilməz. Mən bunu qəbul edirəm. Çünki fəal toqquşma prosesindən sonra tərəflər gərək sülh müqaviləsi haqqında düşünsünlər və bunu etsinlər. Yəni, siyasi yollar olacaq. Ona görə hərbi-siyasi yol ən məqbul yoldur. Biz hərbi yolu dayandırmaq istəyirik. Ancaq Ermənistan hələ də düşünür ki, itirilmiş, yəni, bizim azad etdiyimiz torpaqları geri qaytaracaq. Ona görə döyüş meydanında da bizə daim hücum edir.

***- Cənab Prezident, o zaman bunu anlayıram ki, qarşı tərəf masaya oturmağa razı olana qədər siz cəbhədə irəliləyəcəksiniz.***

- Biz irəliləyəcəyik. Bir də ki, onlar gərək atəşkəsə riayət etsinlər. Çünki onlar atəşkəsi pozdular. Günorta saat 12-dən atəşkəs elan edildi. Biz bütün hərbi birləşmələrimizə çox ciddi əmr verdik ki, atəşkəsə riayət edin, dayandırın. Halbuki bunu etmək o qədər də asan deyil. Biz saat 12-də dayandıq, amma onlar dayanmadı. Ondan sonra təqribən 1 saat ərzində biz yenə də özümüzü müdafiə etmək üçün hərəkətə keçdik və yenə də bir neçə kəndi azad etdik. Ona görə Ermənistan nəhayət anlamalıdır ki, bu yolla o, heç nəyə nail olmayacaq. Yalnız atəşkəsə onlar əməl etməlidirlər. Hesab edirəm Ermənistan rəhbərliyi bu məsələ ilə bağlı yeni bir açıqlama verməlidir ki, onlar atəşkəsə sadiqdir və buna əməl edirlər. O zaman biz də dayanaq. Amma əlbəttə proses daha illər boyunca davam edə bilməz. Ondan sonra bizə təqvim verilməlidir. Biz Moskva görüşləində təqvim üçün o qədər də israr etmədik. Çünki bir gün ərzində bunu razılaşdırmaq çətin bir işdir. Biz bunu anlayırıq. Ancaq sülh prosesi başlanan kimi gündəlikdə duran ilk məsələ təqvim məsələsidir. Tarixlər verilməlidir. Hansı tarixlərdə qalan torpaqlardan erməni silahlı qüvvələri çıxır və biz bu torpaqlara giririk. Əks təqdirdə, biz davam edəcəyik, dediyim kimi sona qədər.

***- Yəni, bunu başa düşürük, əgər Ermənistan hücumları dayandırarsa, atəşkəs həyata keçərsə yeni bir müzakirə prosesi başlayır və zəmin formalaşdırılacaq. Moskvadakı müzakirədə başa düşdüyümüz qədər Minsk 2007, 2009, 2012 Madrid prinsiplərindən bəhs olunmadı. Amma o prinsiplərin ilk maddəsi, səhv etmirəmsə, yeddi rayondan geri çəkilməklə bağlı idi.***

- Bəli, doğrudur.

***- Siz o prinsipləri hələ də gündəmdə saxlayırsınızmı, yoxsa, onları yeniləmək lazımdır?***

- Yox, onları gündəmdə saxlayırıq. Mən bunu artıq açıqlamışam. Biz Madrid prinsipləri adlandırılan təməl prinsiplərə sadiqik. Çünki bu prinsiplər bizim maraqlarımıza cavab verir. Onsuz da Ermənistan bu prinsipləri qəbul etmədiyi barədə artıq açıqlama vermişdir. Mənə verilən məlumata görə, Ermənistanın baş naziri dünən, ya ondan əvvəlki gün belə bir açıqlama vermişdi ki, bu, onlar üçün keçərli deyil. Yəni, kim danışıqlar prosesini pozur? Ermənistan. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq. Belə olan halda baza prinsiplərinə sadiqlik göstərmək çox böyük siyasi iradə və məsuliyyət tələb edir. Ona görə biz bu baza prinsiplərinə sadiqik. Siz dediyiniz kimi orada göstərilib ki, 5 rayon birinci mərhələdə, ondan sonra 2 rayon, ondan sonra Dağlıq Qarabağın gələcəyi ilə bağlı söhbət aparılacaq. Azərbaycan köçkünləri Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıtmalıdırlar, - çünki Şuşanın əhalisinin 98 faizi azərbaycanlılar idi, - Xankəndiyə qayıtmalıdırlar və ondan sonra necə ki, Azərbaycanın başqa yerlərində, Bakıda, başqa şəhərlərdə azərbaycanlı və erməni əhali bir yerdə yaşadıqları kimi orada da bir yerdə yaşayacaqlar. Bizim mövqeyimiz budur.

Ermənistanın mövqeyi isə azərbaycanlıları oradan qovmaq, - necə ki, bunu etdilər, - sonra azərbaycanlılara imkan verməmək ki, qayıtsınlar, - orada etnik təmizləmə siyasətinin nəticələrini möhkəmləndirmək, bizim tarixi, dini, mədəni abidələrimizi yerlə-yeksan etmək, azərbaycanlıların mədəni irsini silmək və ondan sonra bu torpaqları erməniləşdirməkdir. Bax, onların yanaşması budur, bizim yanaşmamız isə budur.

***- Daha fərqli bir sualım da var. Dünən Paşinyan bir açıqlama verdi, Azərbaycan Ordusu şimaldan və cənubdan irəliləyir, Sizin də söylədiyiniz kimi. Dedi ki, biz, əslində, bir taktika olaraq oradan çəkildik. Bu barədə nə deyə bilərsiniz?***

Ardı Səh. 6

# “Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür ki, biz istənilən anda bir-birimizin yanındayıq”

## *Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib*

Əvvəli Səh. 5

- Bu, Paşinyanın növbəti yalanıdır. Bilirsiniz, hər bir məsuliyyətli adam gərək yalan danışmasın. Hər bir insan. Xüsusilə siyasətçi, xüsusilə ölkə başçısı. Bu, heç bir insana yaraşan deyil. Onun isə bütün əməli, bütün sözü yalandır - tarixlə bağlı, bu münaqişə ilə bağlı, bu gün baş verən hadisələrlə bağlı. O, əgər bunları bilmirsə, o zaman necə ali baş komandan olur? Əgər real durumu ona demirlərsə, o zaman o, öz hərbi rəhbərlərinə irad tutmalıdır. Əgər bilib yalan danışırsa, - mən daha çox bu versiyaya inanıram, - o zaman bu, böyük ayıbdır.

Bu gün Azərbaycan Ordusu bütün istiqamətlər üzrə erməni ordusuna çox sarsıdıcı zərbələr endirib. Mən bəzi açıqlamalar da verdim və bu rəqəmlər hər gün dəyişir. Dünənə olan dəqiq məlumata görə, 200 erməni tankı məhv edildi, 33 erməni tankı qənimət götürüldü, - Ermənistanın əlində bir dənə də olsun Azərbaycanın hərbi texnikası yoxdur, - 33 tank, özü də saz vəziyyətdə, indi bizim ordumuzdadır. Ondan sonra 2 ədəd S-300 hava hücumuna qarşı müdafiə sistemi məhv edildi, 35 ədəd OSA hava müdafiə sistemi məhv edildi, KRUQ KUB və başqa texnikalar. Beləliklə, erməni ordusunun texniki təchizatı çox sarsıldı, yəni çökür. Biz irəliləyirik, hər dəfə yeni torpaqları azad edirik və bu, reallıqdır. Yaxın vaxtlarda yeni açıqlamalar olacaq və bu onları daha da sarsıdacaq. Erməni xalqı da həqiqəti bilməlidir. Ən dəqiq məlumatı biz veririk. Ona görə erməni xalqı əgər real vəziyyəti öyrənmək istəyirsə bizə qulaq assın, bizi eşitsin.

***- Cənab Prezident, başa düşdüyümə görə otuz illik problem həll ediləcəkmi? Mənə elə gəlir ki, həll ediləcək, amma mən Sizdən soruşmaq istəyirəm. 1990-cı illərdən bəri davam edən bu işğal problemi bu dəfə həll ediləcəkmi, yoxsa, hər kəs bir nöqtədə duracaq, bir status-kvo formalaşacaq və o status-kvo davam edəcəkmi? Tam həll reallaşacaqmı, reallaşmayacaqmı? Bəlkə erkən bir sualdır, amma nə deyə bilərsiniz?***

- Məncə artıq həll edilir. Hesab edirəm ki, beynəlxalq təşkilatlar və bu məsələ ilə yaxından məşğul olan ölkələr bunu görürlər və bu, yeni reallıqdır. Bu yeni reallığı biz təşkil etdik və bu məsələ həll olunur. Çünki baza prinsiplərində göstərilmişdir ki, birinci mərhələdə 5 rayon bizə qaytarılır. Onlardan artıq 2 rayonun böyük qismi, tam deyil hələ, amma böyük qismi artıq bizdədir. Əgər Ermənistan yenə də mənfi davranış nümayiş etdirərsə, ümid edirəm ki, yaxın gələcəkdə digər rayonlar da bizdə olacaq. Bu, məsələnin həlli deyilmi? Yəni, biz, əslində, baza prinsiplərini döyüş meydanında həyata keçiririk, gerçəkləşdiririk. Minsk qrupu buna nail ola bildimi? Xeyr, ola bilmədi. Ona görə bu məsələnin həlli, bir daha demək istəyirəm ki, hərbi-siyasi yollarla mümkündür. Hərbi yol hazırda baş verir, biz istəyirik ki, nə qədər tez olursa-olsun, bitsin, ondan sonra siyasi proses başlansın və baza təməl prinsipləri də əsas olsun.

Məsələnin həll edilməməsinin səbəbi, ilk növbədə, beynəlxalq təşkilatların öz qərarlarına hörmətsiz yanaşmasıdır. Çünki Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bildiyiniz kimi, 1993-cü ildə 4 qətnamə qəbul etmişdir və orada göstərilir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan qeyd-şərtsiz, yəni, heç bir şərt qoymadan çıxmalıdır, tam həcmdə. Amma bu, icra edildi? Edilmədi. Sonra Minsk qrupu yaradıldı, ondan bir il öncə yaradıldı, 28 il ötdü, bir şey oldu? Olmadı. Yəni, bizə elə gəldi ki, sanki beynəlxalq təşkilatlar münaqişənin bu vəziyyətdə saxlanmasına tərəfdardırlar ki, necə var elə də qalsın. Azərbaycan köçkünləri əbədi olaraq belə vəziyyətdə qalsın. Ermənistan işğal edilmiş torpaqlarda daha da möhkəmlənsin. Bilirsiniz, orada qanunsuz məskunlaşma aparılırdı. Qanunsuz! Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına zidd olan məsələdir. Onlar erməniləri Suriyadan Dağlıq Qarabağa, Şuşaya köçürürlər, onlara imkan yaradırlar, pul verirlər və artıq bunu televiziyalarda açıq nümayiş etdirirlər. Yəni, bu, beynəlxalq müstəvidə qəbul edilmiş cinayətdir. Onların istəyi budur ki, vaxt keçsin, Azərbaycan xalqı bu torpaqlardan əlini üzsün. O torpaqları görməyən yeni nəsil yetişəcək və o nəsil oraya qayıtmaq istəməyəcək. Azərbaycan bu vəziyyətlə barışacaq, bununla paralel olaraq, ermənilər başqa ölkələrdən oraya gətiriləcək, orada erməni əhalisi çoxalacaq, sabah da deyəcəklər ki, “bilirsiniz, artıq reallıq budur, barışın”. Bu idi onların məqsədi və təəssüf ki, onların hamiləri, onların havadarları bu işlərdə onlara yardımçı olmuşlar. Biz bu məkrli, çirkin planları məhv etdik. Biz yeni reallıq yaratdıq. Bu gün gərək hər kəs bu reallıqla razılaşsın və barışsın.

> **“Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin”**

***- Mən Sizə bir mesaj da gətirdim. Tərtərdə bombardman zamanı sığınacağa girmişdik. Bir vətəndaş vardı, məcburi köçkün, oradan köçmüş. Reportaj hazırlayarkən dedi ki, artıq mən köçkün deyiləm. Dedi ki, mən azad bir vətəndaşam, Suqovuşandan gəlmişdi. Dedi, əgər Prezidentlə qarşılaşsanız, ona hörmətimizi, sevgimizi və salamlarımızı çatdırın. Anladığımıza görə, regionda balanslar artıq dəyişib. Yəni, əvvəlki balanslar - status-kvo yoxdur. Daha da dəyişəcək. Həm dünyaya, həm də Türkiyəyə hansı mesajlar vermək istərdiniz?***

- İlk növbədə, istəyirəm ki, həmin vətəndaşa sizin televiziya vasitəsilə öz sözlərimi deyim. Mən şadam ki, bu gün onun kimi bu sözləri deyən minlərlə insan var. Onlar sevincdən göz yaşları tökürlər, deyirlər ki, mən artıq köçkün deyiləm. Mən bu köçkünlük vəziyyətindən canımı qurtarmışam. Bilirsiniz, mənə minlərlə məktub gəlir. Bu məktubları oxuyanda, sözün düzü, mən də bəzi hallarda sevinc göz yaşlarımı saxlaya bilmirəm. O məktublarda o qədər səmimi, o qədər isti, o qədər qürurverici sözlər yazılır və mənə mesaj kimi çatdırılır. O məktubları oxuyanda bir daha görürəm ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Uzun illər belə vəziyyətdə yaşamaq, ancaq ümidlərlə yaşamaq, ümidlərlə ki, gün gələcək və onlar öz dədə-baba ocağına qayıdacaqlar. Bu, doğrudan da böyük fədakarlıqdır. Mən çox xoşbəxtəm ki, bu qələbə sevincini biz hamımız bizim insanlara bəxş edə bildik.

Bir daha demək istəyirəm, mənə artıq bunu demişəm, orada hər şey dağılıb. İnşallah, bu hərbi toqquşma başa çatandan sonra siz də, biz hamımız da - bütün insanlar gedib görəcəklər ki, ermənilər orada hansı vəhşiliyi törədiblər. Bütün şəhərlər darmadağın edilib, yəni, Stalinqraddan da pis mənzərə. Evlər dağıdılmış, bizim bütün əmlak talan edilmiş, çərçivələr, qapılar sökülmüş, yəni talançılıq. Heç nə yoxdur. İndi Füzulinin kəndlərindən bizim əsgərlərimiz xəbər verir, materiallar göndərir. Füzuli şəhəri də artıq bizim gözümüzün qabağındadır. Orada bir dənə də salamat bina tapmaq mümkün deyil. Yəni, bu vəhşiliyi törətdilər. Amma köçkünlərimiz bilirlər ki, biz o şəhərləri, kəndləri bərpa edəcəyik. Evləri inşa edəcəyik. Onlar oraya qayıdacaq və sülh, əmin-amanlıq şəraitində öz dədə-baba torpaqlarında yaşayacaqlar.

O ki qaldı, bölgədə mövcud olan duruma, təbii ki, durum dəyişir. Əgər son illər ərzində bizim bölgəmizdə daha geniş mənada dəyişən mənzərəyə nəzər salsaq, görərik ki, bir çox yeniliklər var. Əvvəllər sanki bir doğmalar var idi - bu ölkələr müttəfiqdir, bu ölkələr müttəfiq deyil, yaxud da ki, bunlar bir-birinə qarşıdır. Ancaq indi bu dəyişdi. Misal üçün NATO üzvü olan Türkiyə indi Rusiya ilə çox səmərəli əməkdaşlıq edir, həm Suriyada, həm Liviyada, başqa yerlərdə və eyni zamanda, artıq danışdığımız kimi bizim bölgəmizdə. Bu, bir yenilikdir. Bunu 10 il bundan əvvəl kimsə desəydi bəlkə də inanmazdıq. Eyni zamanda, NATO-nun daxilində bəzi ölkələr arasında münasibətlər o qədər də səmimi deyil. Bu da bir yenilikdir. Orada sanki həmrəylik pozulur. Avropa İttifaqı ilə əlaqədar olan hadisələr. Kimin ağlına gələ bilərdi ki, Böyük Britaniya Avropa İttifaqından çıxacaq və ondan sonra bir böhran yaranacaq. Heç kimin ağlına gələ bilməzdi. Yəni, ənənəvi fərziyyələr artıq yoxdur. Hansı ölkə buna daha tez uyğunlaşsa, o ölkə də öndə olacaq.

Bizim siyasətimiz hər zaman praqmatik olub - real durumu düzgün təhlil etmək, öz maraqlarımızı düzgün təsbit etmək. Bu maraqlara necə nail olacağıq, bunu düşünmək, taktikamızı yaratmaq, strateji baxış çərçivəsində taktiki gedişlərdə düzəlişlər etmək. Ancaq bununla bərabər prinsipial mövqeyimizdən dönməmək. Bu siyasət bu gün bizə uğur gətirir. Mən hesab edirəm ki, Türkiyə və Azərbaycan dünyanın yeni nizamına daha tez hazır olmuş ölkələr sırasındadır. Eyni zamanda, Türkiyə bu gün dünya miqyasında böyük güc kimi dünyanın yeni nizamının formalaşmasında çox fəal rol oynayır. Təkcə bizim regionda deyil, dünyada.

O ki qaldı, bizim regionumuza, artıq Türkiyə-Azərbaycan birliyi bir reallıqdır. Bununla hər kəs barışmalıdır. Nə qədər çox vaxt keçsə, bizim birliyimiz daha da güclənəcək. Çünki Türkiyənin potensialı, Azərbaycanın təbii resursları, bizim aramızda olan nəqliyyat layihələri, Türkiyə və Azərbaycan vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, Orta Asiyadan, Əfqanıstandan Azərbaycan və Türkiyə ərazilərindən yeni nəqliyyat layihələrinin icra edilməsi - bütün bunlar yeniliklərdir. Yeni bir nəqliyyat xəritəsi mövcuddur. Yeni enerji xəritəsi mövcuddur. Mən gələcəyi çox nikbin görürəm. Mən əminəm ki, biz istədiyimizə nail ola biləcəyik. Çox şadıq ki, bizim Türkiyə kimi qardaş ölkəmiz var, güclü dövlət var, sözünü deyən, maraqlarını müdafiə edən, heç kimdən çəkinməyən və irəliyə gedən. Bu, bizim gücümüzü artırır. Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün Türkiyə bir nömrəli müttəfiqdir. Bu, böyük sərvətdir. Bu hadisələr bizim əlaqələrimizi daha da möhkəmləndirdi.

***- Cənab Prezident, sonuncu sualım olacaq, çox qısa. Bu dəfə dayanmayacağığ deyirsiniz və bizim şərtlərimiz işğal altındakı torpaqlar azad edilənə qədər gedəcəyik deyirsiniz. Sizi səhv anlamadım ki?***

- Yox, doğru anladınız. O mənada ki, bizim son hədəfimiz dəyişməz olaraq qalır. Azərbaycanın beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin edilməlidir. Biz döyüş meydanında dayanmağa hazırıq. Əgər Ermənistan buna hazır olarsa və bizə təqvim verilərsə, biz sabah dayanmağa hazırıq. Ancaq proses olaraq biz dayanmayacağıq. Biz istəyirik ki, artıq hərbi proses siyasi prosesə çevrilsin. Ermənistan buna hazırdırsa və beynəlxalq təşkilatlar, böyük ölkələr Ermənistanı inandıra bilərlərsə, bu, daha tez bir zamanda olacaq. Yox, o zaman Azərbaycan Ordusunun zəfər yürüşü davam edəcək.

***- Cənab Prezident, mən 1993-cü ilin ilk aylarında burada cəbhə bölgəsində idim. 1994-cü ildə rəhmətlik dövlət başçısı cənab Heydər Əliyev ilə görüşdüm. Bakıda bura o zaman yox idi, deyəsən.***

- Eləmi? Görüşdünüz? Bu, yox idi, bu, sonra inşa edildi.

***- Bu gün də Sizinlə görüşdüm, yəni, iki dövlət başçısı ilə görüşdüm. 1993-cü ildə cəbhədəki vəziyyətlə indiki vəziyyət çox fərqlidir, xeyli çox fərqlidir. Bunu da gördük.***

- Doğrudur.

***- Sizə çox təşəkkür edirəm. Sonda bir mesajınız, ya da ki, sözləriniz varsa, onu da eşitmək istəyirəm. Qəbul etdiyiniz və suallarımızı cavablandırdığınız üçün həm NTV, həm də öz adımdan çox təşəkkür edirəm.***

- Çox sağ olun. Mən də təşəkkür edirəm, NTV-nin bütün əməkdaşlarına salamlarımı çatdırın. Azərbaycanda türk kanalları əvvəllər də izlənilirdi, bu dövrdə demək olar ki, daha geniş auditoriyaya malikdir. Mən özüm də hər səhər tezdən televizoru açanda, o cümlədən türk kanallarına da baxıram, o cümlədən NTV-yə. Bu günlər ərzində Türkiyə mətbuatında və Türkiyə cəmiyyətində bizə göstərilən dəstək və həmrəylik əsl qardaşlıq təzahürüdür. Biz bir daha gördük ki, atamın məşhur kəlamı “Bir millət, iki dövlət”, sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Bu reallığı biz yaratdıq.

Bilirsiniz, dünyada bir çox ölkələr var ki, o ölkələrin xalqları bir-birinə yaxındır - etnik, dini, mədəniyyət, dil baxımından. Ancaq bu, o demək deyil ki, o ölkələr arasında möhkəm işbirliyi, qardaşlıq olsun. Belə misallar çoxdur, siz də bunu yaxşı bilirsiniz. Bizim üstünlüyümüz odur ki, Türkiyə və Azərbaycan prezidentləri - əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə birlikdə bu təməl - ortaq tarix, etnik köklər və dil üzərində elə bir möhkəm bina inşa etdik ki, bu, əbədi qalacaq. Bizdən sonra gələn nəsillər də hərəsi bu binanın üstünə bir daş qoyarsa, bu möhtəşəm bir bina olacaq - Türkiyə-Azərbaycan qardaşlığı binası. Mən bütün qardaşlarıma, Türkiyədə yaşayan bütün insanlara Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Biz gördük ki, biz tək deyilik. Qardaşım Tayyib bəyin dediyi kimi, Azərbaycan hər zaman bilməlidir və bilir ki, Türkiyə onun yanındadır və bu, bizə güc verir.

***Eyni zamanda, onu da bir daha demək istəyirəm, bu gün başqa ölkələrin bu işlərə qarışmamasının əsas səbəbi də ilk saatlardan hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın açıqlamalarıdır ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, işin sonuna qədər də yanında olacaq.***

Bir daha təşəkkür edirəm və bütün türk qardaşlarıma xoşbəxtlik, rifah arzulayıram.

***- Çox təşəkkür edirəm, cənab Prezident.***

- Sağ olun.



## Ərdoğan: “Biz dayana bilmərik”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Beştəpə Millət Konqres və Mədəniyyət Mərkəzində “2020-2021 Ali Təhsil Akademik İlinin Açılış mərasimi”ndə növbəti dəfə Azərbaycana dəstəyini ifadə edib. SİA xəbər verir ki, bu barədə “Milliyet” yazıb. “Azərbaycanda ermənilərin zülmü var. Azərbaycanlılar qardaşlarımızdır, seyr edəkmi? Biz dayana bilmərik. Tarix boyu əcdadlarımızın bizə ötürdüyü bir məsuliyyət var”, deyə Türkiyə prezidenti bildirib.

## “Əl-Cəzirə” kanalının saytında Ermənistanın Gəncəyə raket hücumu ilə bağlı məqalə dərc edilib

“Əl-Cəzirə” telekanalının saytında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədəki mülki obyektlərə və insanlara, o cümlədən uşaqlara qarşı törətdiyi terror aktı ilə bağlı məqalə dərc olunub.


ALJAZEERA News US Elections Features Economy Opinion Video More

News

**Hours after truce agreed, children became orphans in Azerbaijan**

*Ten people were killed in an attack on Azerbaijan's second city, Ganja, including several members of the same families.*

Sevil Aliyeva, 16, carries the portraits of her parents Anar Aliyev and Nurchin Aliyeva who were killed in the Ganja attack as her brother Huseyin Aliyev, 8, cries on the shoulders of a relative during their funeral ceremony in the city of Shamkir, Azerbaijan [Umit Bektas/Reuters]

By Seymur Kazimov
15 Oct 2020

**Ganja, Azerbaijan** – On Sunday, at about 2am, the people of Ganja, Azerbaijan's second city, ...und of an explosion.

AZƏRTAC xəbər verir ki, məqalədə oktyabrın 11-i gecə saat 02:00 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı daha bir terror aktının törədildiyi, hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə şəhərinin Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutulduğu və dinc sakinlərin, o cümlədən uşaqların qətlə yetirildiyi, onlarla insanın yaralandığı, bir neçə yaşayış binasının tamamilə dağıldığı bildirilir.

Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinadla bildirilir ki, Ermənistan əldə olunmuş humanitar atəşkəs razılaşmasının tələblərini kobud şəkildə pozaraq yalnız Gəncəni deyil, həm də Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərini, həmçinin digər mülki əraziləri də ağır artilleriya və raket atəşinə tutub.

“Ermənistanın bu hücumları həm Rusiya Federasiyası, həm də dünya birliyinə qarşı hörmətsizlik kimi qiymətləndirilməlidir. Bu vandalizm və soyqırımı aktı Rusiya Federasiyasının birbaşa vasitəçiliyi ilə əldə olunmuş humanitar atəşkəs rejiminə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilib. Dünya birliyi bu hadisələrə lazımi diqqət yetirməlidir,” - deyə Prezidentin köməkçisinin fikirləri diqqətə çatdırılır.

## DTX növbəti dəfə erməni terroru barədə xəbərdarlıq edir



Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmuş məlumatlara əsasən, Ermənistan xüsusi xidmət orqanları cəbhədə öz ordularının silsilə məğlubiyyətlərini ört-basdır etmək məqsədilə Azərbaycan Respublikasının böyük şəhərlərində insanların sıx cəmləşdiyi yerlərdə, ictimai nəqliyyatda terror-təxribat və digər pozuculuq aktlarını həyata keçirmək, bununla da keçən əsrin 80-ci illərin sonu və 90-cı illərdə Bakıda və ölkəmizin başqa yerlərində dinc əhaliyə qarşı törətdikləri mənfur və insanlığa sığmayan qanlı terror əməllərini təkrarlamaq niyyətindədirlər. Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən bildirilib.

Qeyd edilir ki, Ermənistan dövlət səviyyəsində terroru dəstəkləyən və terror əməllərini həyata keçirən dövlətdir. Hazırda Ermənistan silahlı qüvvələrinin və xüsusi xidmət orqanlarının tərkibində Yaxın Şərq ölkələrindən gətirilmiş terrorçular xidmət edir.

“Vətəndaşları gündəlik həyat və iş ahəngini pozmadan və təşvişə qapılmadan ayıq-sayıq olmağa çağırır, yaşadıqları ərazilərdə şübhəli şəxslər, hərəkət və əşyalar barədə məlumatları (012) 4059999 nömrəli telefonla Dövlət Təhlükəsizliyi Xidmətinə, eləcə də yerli polis və digər hüquq-mühafizə orqanlarına bildirmələrini xahiş edirik.

Eyni zamanda, son dövrlərdə erməni terror təşkilatı olan ASALA-nın fəallaşdığını nəzərə alaraq, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərini və diplomatik heyəti, diaspor təmsilçilərini və ölkəmizə aid şirkətlər və onların əməkdaşlarını ayıq-sayıq olmağa və şübhəli hallar müşahidə edildikdə yerləşdikləri ölkələrin hüquq-mühafizə orqanlarına müraciət etməyi tövsiyə edirik”, - deyə DTX-nin məlumatında bildirilir.

## XİN: Ermənistan silahlı qüvvələrinin Tərtərdə dəfn zamanı qəbiristanlığı atəşə tutması insanlıq əleyhinə cinayətdir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti oktyabrın 15-də Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəsi kobud şəkildə pozaraq, Azərbaycanın sıx məskunlaşmış yaşayış yerlərini və mülki şəxslərini məqsədyönlü atəşə tutmağa davam etməsinə dair açıqlama yayıb. XİN-dən AZƏRTAC-a daxil olan məlumatda bildirilir: “Səhər saatlarından etibarən, Azərbaycanın Ağdam, Ağcabədi, Goranboy və Tərtər rayonları artilleriya atəşinə məruz qalıb.



Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunda dəfn mərasimi zamanı qəbiristanlığı bilərəkdən atəşə tutması nəticəsində 3 mülki şəxs həyatını itirib, 5 nəfər isə ciddi xəsarət alıb.

Məqsədli şəkildə azərbaycanlı mülki şəxsləri hədəfə alaraq, dinc insanların hər hansı fərq qoyulmadan qətl edilməsi halı olan bu akt, Ermənistanın törətdiyi növbəti barbarlıq və insanlıq əleyhinə cinayətdir.

Ermənistan tərəfindən humanitar atəşkəsin kobudcasına pozulması bir daha onu nümayiş etdirir ki, bu ölkə münaqişənin siyasi həllində maraqlı deyil və Azərbaycana qarşı təcavüz siyasətini davam etdirmək məqsədini güdür.

Ermənistanın təcavüzkar siyasətini və bu ölkənin təcavüzü zamanı törətdiyi müharibə cinayətlərini qətiyyətlə pisləyirik. Ermənistandan beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyaları ilə üzərinə götürdüyü öhdəliklərə hörmət etməyi tələb edirik. Humanitar atəşkəsə sadiq olduğumuzu qeyd edərək, Azərbaycanın öz mülki əhalisini müdafiə etmək suveren hüququnu özündə saxladığını bəyan edirik”.

## Ermənilər Tərtərdə dəfn mərasimində əhalini atəşə tutdu: 4 nəfər öldü



Dünən saat 13 radələrində düşmən tərəfin silahlı birləşmələri tərəfindən Tərtər şəhər qəbiristanlığının dəfn mərasimi keçirilərkən qəsdən ağır artilleriyadan intensiv atəşə tutulması nəticəsində ölənlərin sayı 4-ə çatıb. Hadisə zamanı yaralananlardan biri - 1967-ci il təvəllüdlü Əmirov İsgəndər Yelmar oğlu vəfat edib.

Daha əvvəl həmin zaman orada olan şəhər sakinləri - 1989-cu il təvəllüdlü Orucov Pərviz Novruz oğlu, 1962-ci il təvəllüdlü Rüstəmov Vasif Bahadur oğlu və 1988-ci il təvəllüdlü Zamanov Şakir Xasay oğlu həlak olub. Məmmədov Fizuli Əli oğlu, Allahverdiyev Elsevər Vəli oğlu, Əmirov Nofəl Yelmar oğlu və Qəzənfərli Rəfael Qəzənfər oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər./report

## Paşinyan oğlunu Qarabağdan qaçırdı!



Ermənistanın baş naziri Nikol Paşinyan oğlu Aşotun Qarabağda vuruşması ilə bağlı az qala hər gün danışır, bunu xüsusilə vurğulayır. Aşot Paşinyan da son günlərdə Ermənistanın müxtəlif telekanallarının “gənc ulduz”una çevrilmişdi. O, gah əlində avtomat səngərdə o yan bu yana qaçır, gah mazğalın qarşısında durub binoklla “azərbaycanlıların mövqelərinə baxır”, gah da “Ermənistan ordusunun şücaət”indən, “erməni könüllülərin qəhrəmanlığı”ndan bəhs edirdi.

Ermənistan vətəndaşlarının çoxu bu görüntülərin propaqanda olduğunu düşünsələr də, İrəvanın təbliğat maşını “kiçik Paşinyan”ı qəhrəman obrazının daxilinə yerləşdirməyə can atırdı. Lakin indi o mexanizm işləklik əmsalını aşağı salıb.

Səbəb sadədir: Qarabağda döyüşlərin Ermənistan üçün çox təhlükəli, hətta fəlakətli vəziyyət almasından dolayı, Aşot Nikoloviç Paşinyan dünən günorta saatlarında Dağlıq Qarabağdan çıxarılıb. O, hazırda Meğri şəhərindəki otellərdən birindədir. Otel ciddi mühafizə olunur. N.Paşinyanın göstərişinə əsasən, oğlu yalnız “xüsusi çəkilişlər” üçün Qarabağa aparılacaq, çəkiliş başa çatan kimi geri qaytarılacaq. (Milli.az)

## Düşmən təcili tibbi yardım maşınını atəşə tutdu: bir tibb işçisi şəhid oldu

İşğalçı Ermənistanın hərbi birləşmələri növbəti dəfə müharibə qanunlarını və qəbul edilən konvensiyaları pozaraq, bu dəfə cəbhə bölgəsində yaralı daşıyan təcili tibbi yardım maşınını atəşə tutub. Nəticədə bir nəfər tibb işçisi şəhid olub. SİA xəbər verir ki, bu barədə Türkiyənin cəbhə bölgəsinə ezam olunmuş TV100 kanalı məlumat verib.

Bir daha sübuta yetirilib ki, humanitar atəşkəs rejimini pozan Ermənistanın terrorçu hərbi birləşmələri öz alçaq əməllərini açıq-aşkar şəkildə törədir, üstəlik Azərbaycan tərəfini ittiham edirlər. Bir sıra beynəlxalq təşkilatlar və insan hüquqları qurumları isə təəssüf ki, Ermənistanın bu cür çirkin, qanlı əməllərinə qarşı ya susqun qalırlar, ya da səthi və formal şəkildə fikir bildirməklə işlərini yekunlaşmış bilirlər.

*Rövşən RƏSULOV*

## BQXK: Semyon Peqovun hərəkət etdiyi avtomobil bizə aid deyil

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) işğal altında olan Azərbaycan ərazilərində hərbi müxbirin quruma məxsus avtomobillə hərəkət etməsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

BQXK-dən SİA-ya verilən məlumatda bildirilir ki, yayılan xəbərlər həqiqəti əks etdirmir: “Bəzi mətbuat nümayəndələri yoxlanılmamış mənbəyə istinad edərək, hərbi müxbir Semyon Peqovun Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) maşınında hərəkət etməsini və o maşında cəbhə zonasına daxil olmasını iddia ediblər. Biz, BQXK olaraq, tam məsuliyyəti ilə bildiririk ki, şəkil və videolarda görünən nəqliyyat vasitəsi bizə məxsus deyil və bu regionda, bizim quruma məxsus elə bir maşın yoxdur. O məqamda, deyilən məkanda bizim heç bir əməkdaşımız və ya nəqliyyat vasitəmiz olmayıb. Beynəlxalq Qızıl Xaç Komitəsi barədə verilən və ya onun adı çəkilən məlumatları bizimlə dəqiqləşdirmənizi xahiş edirik”.

# İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz"

*Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



***-Cənab Prezident, Azərbaycan üçün və bütün dünya üçün bu qədər çətin bir vaxtda Sizə suallar verməyə yaratdığınız imkana görə Sizə ürəkdən təşəkkür edirəm. Beləliklə, icazənizlə, birinci sualı verim. Siz sentyabrın 27-dən başlanmış hərbi əməliyyatların nəticələrini necə qiymətləndirirsiniz? Sizin hesablamalara görə tərəflərin itkiləri nə qədərdir və əsirlər çoxdurmu?***

-Sentyabrın 27-də Azərbaycan Ermənistan silahlı qüvvələrinin növbəti hücumuna məruz qalıb. Bu, son üç ay ərzində birinci hücum deyildi. İyul ayında dövlət sərhədində buna bənzər, lakin nisbətən kiçik miqyaslı hadisə baş vermişdi. O vaxt həmin hücum dəf edildi. Sonra avqust ayında Azərbaycanın dinc əhalisinə və hərbi qulluqçularına qarşı terror aktları törətmək üçün Ermənistan tərəfindən təxribat qrupu göndərildi və bu qrupun başçısı saxlanıldı. Hazırda o, ifadə verir. Sentyabrın sonunda bizim yaşayış məntəqələrimiz yenidən artilleriya atəşlərinə məruz qaldı. Elə ilk saatlarda bizdə həm dinc əhali, həm də hərbi qulluqçular arasında tələfat oldu. Bu günə qədər bizdə dinc əhali arasında 43 nəfər həlak olan və 200-dən çox yaralı var, təmas xəttinə yaxın kəndlərdə və şəhərlərdə 2 minə yaxın ev ya tamamilə dağıdılıb, ya da zərər çəkib. Təəssüf ki, atəşkəs parametrləri razılaşdırıldıqdan sonra da Ermənistan tərəfindən artilleriya atəşləri davam edir, o cümlədən Gəncə şəhərinin vəhşicəsinə bombardman edilməsi nəticəsində 10 nəfər dinc sakin həlak olub və 40-a yaxın adam yaralanıb.

Döyüş meydanında itkilərə gəldikdə isə bizdə olan məlumata görə erməni tərəfin itkiləri bizim itkilərdən xeyli çoxdur. Biz hərbi qulluqçular arasında itkilərimizi münaqişənin qaynar fazası başa çatandan sonra elan edəcəyik. Döyüş əməliyyatlarının nəticələrinə gəldikdə, onlar Azərbaycan Ordusu üçün çox uğurludur. Biz düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olduq. Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk.

***-Cənab Prezident, Suriyadan və ya Livandan olan muzdluların Azərbaycan Ordusu tərəfində iştirak etməsi barədə müxtəlif mənbələrdən xəbərlər eşidirik. Buna nə dərəcədə inanmaq olar?***

-Bu mövzuda dəfələrlə danışmışam. Azərbaycanda hər hansı xarici hərbi iştiraka ehtiyac yoxdur. Bizim orduda 100 mindən çox döyüşçü var. Zərurət yaranarsa, səfərbərlik hesabına bu rəqəm bir neçə dəfə artırıla bilər. Bu gün malik olduğumuz silahlı dəstələr onların qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir. Erməni hərbi texnikasının məhv edilməsi kadrları internetdə əlçatandır. Əlbəttə, heç bir muzdlunun bu dərəcədə ixtisası və belə texniki imkanları yoxdur. Biz təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan artıq dəyərində hərbi texnikasını məhv etmişik. Buraya bizim malik olduğumuz başqa vasitələr daxil deyil. Azərbaycan Ordusunun potensialı məlumdur. Bizim nəyə malik olduğumuz heç kəs üçün sirr deyil. Buna görə bizim əlavə hərbi qüvvələrə ehtiyacımız yoxdur. Azərbaycan beynəlxalq terrorizmə qarşı həmişə ardıcıl mübariz olub. Əlbəttə, hansısa terror təşkilatlarının bizim ərazimizdə yuva salmalarına, xüsusən bizim xalqımız və qonşularımız üçün təhdid mənbəyi olmalarına heç vaxt imkan verməyəcəyik. Biz buna heç vaxt imkan verməyəcəyik. Azərbaycan ərazisində indiki hərbi toqquşmalarda iştirak edən xarici silahlı dəstələrin mövcudluğu barədə heç kəs bizə heç bir sübut təqdim etməyib. Bizim rəsmi mövqeyimiz belədir ki, bizdə heç bir əcnəbi muzdlu yoxdur.

***-Cənab Prezident, 10 oktyabr tarixli Moskva razılaşmalarında nizamlamanın baza prinsiplərinin adları çəkilir. Zəhmət olmasa, bu prinsipləri açıqlayın, Siz onları necə başa düşürsünüz?***

-Bu prinsiplər uzun illər ərzində, deyərdim ki, 10 ildən artıq müddətdə işlənib hazırlanıb. Ermənistanın əvvəlki rəhbərliyi ilə iş prosesində biz mövqelərimizin razılaşdırılması istiqamətində çox fəal irəliləyirdik. Bu, çox mürəkkəb məsələ idi. Danışıqlar istənilən halda, xüsusən belə mühüm məsələdə mürəkkəb prosesdir. Buna baxmayaraq, hər iki tərəf siyasi nizamlama yolu ilə getmək arzusu nümayiş etdirirdi. Lakin təəssüf ki, Ermənistanın indiki rəhbərliyi hakimiyyətə gələndən sonra erməni tərəfi o vaxta qədər əldə edilənlərin hamısını sadəcə kənara atdı. Üstəlik, danışıqların formatını dəyişməyə, qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "hakimiyyət orqanları"nı danışıqlara cəlb etməyə cəhd göstərildi. Bu cəhd həm bizim tərəfimizdən, həm də ATƏT-in Minsk qrupunun

# İlham Əliyev: "Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz"

*Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib*

həmsədrləri tərəfindən rədd edildi.

Baza prinsiplərinə gəldikdə, orada hər şey dəqiq yazılıb. Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli şəkildə azad olunması nəzərdə tutulur. Birinci mərhələdə işğal edilmiş ərazilərin cənub-şərq hissəsindəki 5 rayon, ikinci mərhələdə Dağlıq Qarabağ ilə Ermənistan arasında yerləşən ərazilər - Laçın və Kəlbəcər rayonları işğaldan azad edilməli, bütün kommunikasiyalar, o cümlədən Ermənistan-Azərbaycan sərhədinin digər hissələrində yerləşən kommunikasiyalar açılmalı, qaçqınlar və məcburi köçkünlər əvvəlki yaşayış yerlərinə qaytarılmalıdır. Bu, azərbaycanlı köçkünlərin həm Şuşa ərazisinə, həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər rayonlarının ərazisinə qaytarılmasını və Dağlıq Qarabağın tərəflər arasında razılaşdırılmalı olan qəti statusunun müəyyən edilməsinə dair danışıqları nəzərdə tutur. Qısa desək, Azərbaycanın həmişə hörmətlə yanaşdığı baza prinsipləri bunlardır və onları biz hazırlamışıq. Lakin Ermənistanın yeni hakimiyyət orqanları dəfələrlə bəyan ediblər ki, bu prinsiplər onlar üçün qəbuledilməzdir, onlar bircə qarış belə torpağı qaytarmayacaqlar. Bunu Ermənistanın baş naziri deyirdi. Ermənistanın müdafiə naziri deyirdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Bizim ünvanımıza daim hədələr və təhqirlər səslənirdi, nəticəsi də bax bu cür qarşıdurma oldu. Düşünürəm ki, erməni tərəf vəziyyəti, yaranmış yeni vəziyyəti ayıq şəkildə qiymətləndirməli və atəşkəs rejiminə sadiq olmalıdır. Halbuki, o, bir neçə saatdan sonra gecənin bir aləmində dinc Gəncə şəhərini bombalayaraq atəşkəsi vəhşicəsinə pozub.

***-Cənab Prezident, kompromislər barədə danışmalı olsaq, hər halda, Siz hansı kompromislərə hazır olardınız? Elə bir hədd varmı ki, Siz heç bir halda həmin həddən artıq geri çəkilməzsiniz?***

-Bizim mövqeyimiz həmişə çox konstruktiv, ardıcıl olub. Bu mövqe həm də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qüvvələrinin bizim ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamənin yerinə yetirilməsi baxımından beynəlxalq hüququn normalarına əsaslanıb. Bizim mövqeyimiz həmişə praqmatik yanaşmaya əsaslanıb. Düşünürəm ki, danışıqlar masası üzərində olan variantlar bunu aşkar göstərir. "Qırmızı xətlərə" gəldikdə isə biz bunu çox dəqiq bəyan etmişik və Minsk qrupunun həmsədrləri bunu yaxşı bilirlər. Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç bir şərtlə razılıq verməyəcək. Lakin, eyni zamanda, bizim təklifimiz buna əsaslanırdı ki, gələcəkdə Dağlıq Qarabağ ərazisində erməni icması və Azərbaycan icması dinc yanaşı yaşamalıdır. Yeri gəlmişkən, Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən çoxminlik erməni icmasının mövcud olduğu Bakıda, Rusiyada, Gürcüstanda, digər ölkələrdə ermənilərlə azərbaycanlılar bəzən bir kənddə yaşayır və işləyir, onların arasında heç bir ziddiyyət yaranmır. Buna bizdə nə üçün nail olmaq mümkün deyil? Biz bu əzmdəyik. Lakin əlbəttə, etnik təmizləmələrin nəticələri aradan qaldırılmalıdır və bizim bütün məcburi köçkünlər öz evlərinə qayıtmalıdırlar. Prinsip etibarilə mən sizə mümkün kompromislərə bizim yanaşmamızı baza prinsiplərindən bir qədər geniş açıqladım.

***-Cənab Prezident, bu müharibə öz qəddarlığına görə artıq tarixə düşüb və Siz artıq bu müharibənin tarixinin bir hissəsisiniz. Siz tarixdə necə qalmaq istərdiniz?***

-Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir. Sual olunur: onlar orada nə edirlər? Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz- istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar.

Tarixdə rol məsələsinə gəldikdə isə, bilirsiniz, mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək. Ona görə düşünürəm ki, bu məsələni o adamların mülahizəsinə saxlamaq lazımdır ki, onların fikri məndən ötrü bu və ya digər qərarların, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı qərarların qəbul edilməsində həmişə əsas olub.

***-Cənab Prezident, sağ olun. Mən nəzərdə tutduğum sualların hamısını verdim. Bəlkə Siz daha nə isə əlavə etmək istərdiniz?***

-Mən bu fürsətdən istifadə etmək istərdim. Yeri gəlmişkən, öz sözlərimi çoxmilyonluq Rusiya auditoriyasına çatdırmaq üçün bu imkana görə təşəkkürümü bildirirəm. Sadəcə istərdim ki, Azərbaycanın mövqeyini anlayanlar çox olsun. Ona görə ki, bəzən bu münaqişə, onun tarixi, bugünkü vəziyyəti ilə bağlı müxtəlif fikirlər olur. Sadəcə faktlara istinad etməklə, əslində, nələr baş vermiş olduğunu və indi nələr baş verdiyini tamaşaçıların diqqətinə çatdırmaq istəyirəm. XIX əsrin əvvəlində Qarabağ və Şuşa xanı İbrahimxəlil, - onun statusu məhz belə olub, - Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olması barədə general Sisiyanovun şəxsində çar Rusiyası ilə müqavilə bağlayıb. Kürəkçay müqaviləsi adlanan bu sənədin mətni internetdə yerləşdirilib. Onunla hər kəs tanış ola bilər. Bu müqavilədə Qarabağ xanlığının erməni əhalisi barədə bircə kəlmə də deyilməyib. Erməni əhalisinin bu regiona kütləvi şəkildə köçürülməsi 1813-cü və 1828-ci illərdə iki Rusiya-İran müharibəsindən sonra başlanıb və o vaxtdan müasir İran ərazisindən və qismən Şərqi Anadoludan ermənilərin Qarabağ regionuna kütləvi şəkildə köçürülməsi başlanıb. Bu, həmin torpağın tarixən kimə məxsus olması barədə.

Rusiya imperiyası dağılandan sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil erməni dövləti yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti bütün bu ərazilər çərçivəsində yaradılmışdı. Üstəlik, Azərbaycan Xalq Cümhuriyyəti onun yaradılmasının elan edilməsinin ertəsi günü İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsi barədə qərar qəbul etdi. Bu da tarixi faktdır. 1921-ci ildə Qafqaz Bürosu Dağlıq Qarabağın, bəzi yalançı tarixçilərin dedikləri kimi Azərbaycana verilməsi haqqında deyil, onun Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi. Bu regionun tarixi belədir. SSRİ-nin dağılması mərhələsində nələr baş verdiyi isə, düşünürəm ki, hamıya məlumdur. Əslində, SSRİ-nin dağılması da Dağlıq Qarabağda separatizmdən başlandı. Bu, bir növ tətik oldu. Axı, çoxları həmin mitinqləri, onları kimin təşkil etməsini, bu hadisələrin arxasında kimlərin dayandığını unudur. Mən tez-tez deyirəm ki, Paşinyan Sorosun məhsuludur. Düşünürəm ki, hamı mənimlə razılaşar. Lakin Soros artıq şəxsiyyət deyil. Bu, anlayışdır və mən bunu əsla istisna etmirəm ki, o vaxt böyük ölkəni dağıtmaq üçün bu cür vasitələr işə salınmışdı. Onu daxildən partlatmaq, nifaq toxumu səpmək, xalqları bir-birinə qarşı qızışdırmaq və dövlətləri parçalamaq - yeri gəlmişkən, belə də oldu. Buna görə də, sadəcə, bu tarixi faktları Rusiya ictimaiyyətinin diqqətinə çatdırmaq və demək istərdim ki, Azərbaycan və Rusiya çoxəsrlik dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma telləri ilə bağlıdır. Əminəm ki, heç bir qüvvə buna təsir göstərə bilməz. Doğrudur, müxtəlif istiqamətlərdən nifaq salmaq, müəyyən etimadsızlıq yaratmaq cəhdlərini görürük. Lakin həm Rusiya, həm də Azərbaycan rəhbərliyinin ardıcıl siyasəti sayəsində biz nəinki geriləmirik, biz irəliyə gedirik. Bu gün Rusiya və Azərbaycan bir-birini strateji tərəfdaşlar adlandırır. Bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi hər hansı qonşular üçün nümunə ola bilər. Əminəm ki, münaqişənin hərbi fazası başa çatandan və siyasi nizamlamaya keçəndən sonra, - əgər Ermənistan tərəfi itirdiklərini və ona mənsub olmayanı güclə qaytarmaq cəhdlərindən əl çəkərsə, biz bunu etməyə günü sabah hazırıq, - inanıram ki, Rusiya bizim regionda sabitləşmə işində aparıcı rol oynamaqda davam edəcək. Buna görə sizin kanalınız vasitəsilə bütün rusiyalıları səmimi salamlamaq, onlara ən xoş arzularımı çatdırmaq istərdim. Keçən il bir milyon rusiyalı Azərbaycana səfər edib. Ümidvaram ki, pandemiyadan sonra bu dinamika bərpa olunacaq. Rusiyalı qonaqlarımıza həmişə şadıq. Onlar da bilirlər ki, Azərbaycana gələndə özlərini evlərində olduğu kimi hiss edirlər.

***-Cənab Prezident, bu səmimi müsahibəyə görə çox sağ olun.***

- Sağ olun.

# Prezidentə yazırlar: Sizin xalqa müraciətləriniz və işğaldan azad olunan yaşayış məntəqələrinin adlarını açıqlamağınız bizim üçün ən sevimli anlara çevrilir

***Azərbaycan Ordusunun cəbhədə ard-arda qazandığı qələbələr bütün vətəndaşlarımızın, eləcə də xaricdə yaşayan soydaşlarımızın böyük sevincinə səbəb olur. Onlar bu sevinc hisslərini yaşadıqlarına görə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təşəkkür məktubları yazırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Türkiyənin Ankara şəhərindən Süleyman Vəliyev yazır: “Hörmətli cənab Prezident, doğma torpaqlarımızın mənfur erməni düşmənindən azad edilməsi münasibətilə Sizi özümün və hazırda Ankarada təhsil aldığım “Gülhane” Tibb Universitetinin tələbə və həkim kollektivi adından təbrik edir, həmçinin Sizə minnətdarlığımızı bildirir, uzun ömür və cansağlığı arzu edirəm. İnanırıq ki, Azərbaycan Ordusu öz gücü və qüdrəti ilə tezliklə hazırkı qələbəni böyük qələbəyə çevirəcəkdir. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyir, alqışlayırıq. Biz hər zaman Sizin və güclü Azərbaycan Ordusunun yanındayıq. Artıq bütün dünya bilir ki, Azərbaycanın davası haqq davasıdır, vətənpərvərlik, qəhrəmanlıq, igidlik, ölməzlik, əbədilik zirvəsidir. Belə bir zirvəyə yüksəlmək, bu zirvəni qorumaq bizim hər birimizin müqəddəs vətəndaşlıq borcudur. Ehtiyac olarsa, hamımız cəbhəyə getməyə hazırıq. Cənab Prezident, Allah Sizə və ordumuza bu haqq yolunda yardımçı olsun. Biz birlikdə güclüyük. Qarabağ Azərbaycandır!”.

Ağdam sakini Şövqi Qədirov yazır: “Hörmətli cənab Ali Baş Komandan, sentyabrın 27-də düşmən təxribatına cavab olaraq Ordumuzun Sizin əmrinizlə başladığı əks-hücum əməliyyatları və ard-arda gələn tarixi uğurlar bir gənc müəllim kimi bizləri hədsiz qürurlandırdı. Bu gün xalqımızda müşahidə olunan milli ruh çox yüksəkdir. Sizin həm daxili, həm də xarici siyasətinizi ailəliklə bəyənir və dəstəkləyirik. Mən əminəm ki, qısa müddət ərzində Şanlı Ordumuz bizə Sizin rəhbərliyinizlə xoş xəbərləri verəcək. Allah Sizi və Vətən uğrunda şücaətlə vuruşan Ordumuzu qorusun”.

Bakı şəhər sakini Sevda Əkbərova: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, hazırda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən müharibə şəraitində dövləti əzmlə, layiqincə idarə etməyiniz bizlərə çox qürur verir. Sizin əzmkar iradəniz və hadisələri əvvəlcədən təhlil etmək qabiliyyətiniz sayəsində qələbəyə nail olacağımıza inanırıq. Biz Sizinləyik və yanınızdayıq! Azərbaycan xalqı Sizi sevir və öz Prezidenti ilə fəxr edir. Yaşasın Azərbaycan! Yaşasın onun Ali Baş Komandanı! Qarabağ Azərbaycandır!”.

Bərdə sakini Gülnar Muradova: “Möhtərəm cənab Prezident, Siz hamımızın doğma, əzizi, qüdrətli liderimiz, fəxrimizsiniz. Sizinlə hər birimiz qürur duyuruq. Allah Sizi xalqımıza çox görməsin. 27 ildir Vətənimdən - Ağdamımdan ayrı düşmüşəm. Sizin sayənizdə bu həsrət sona çatacaq, inşallah. Buna əminəm. Bizə bu xoşbəxtliyi yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Qarabağ Azərbaycandır! Xalq İlham, İlham xalqdır! Vuran ürəyimiz, tökülən qanımız, axan göz yaşımız Vətənə qurbandır. Mən fəxr edirəm ki, azərbaycanlıyam. Yaşa Prezidentim, yaşa millətinlə baş-başa. Mən bu misraları yazanda top, tüfəng səsindən ev titrəyir. Amma qorxmuruq, Sizin kimi dayağımız varsa, biz heç nədən qorxmuruq! Siz var olduqca, bizlər də var olacağıq. Allah Sizi qorusun. Amin!”.



Bakı şəhər sakini Qiyas Əhmədovun məktubunda deyilir: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən Xocalı rayonunun Kosalar kəndindən məcburi köçkünəm, hazırda Qəbələ rayonunda məskunlaşmışam. Çox-çox şükür edirəm ki, Azərbaycan xalqının Sizin kimi müdrik, dərin savadlı Prezidenti var. Mən və ailə üzvlərim Sizinlə fəxr edirik. Bu gün hər bir azərbaycanlı qələbəyə köklənib. Gözümüz yolda, qulağımız səsdədir. Hər an xoş xəbərlərin sorağındayıq. Sizin xalqa müraciətləriniz və işğaldan azad olunan yaşayış məntəqələrinin adlarını açıqlamağınız bizim üçün ən sevimli anlara çevrilir. Cəbhədə qazanılan uğurlar münasibətilə Sizi və ailənizi ürəkdən təbrik edirəm. Yolunuz açıq, uğurlarınız bol olsun!”.

Lənkəran sakini Camal Sadıqov: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, indiki müharibə şəraitində apardığınız məqsədyönlü siyasətinizi dəstəkləyir və Sizinlə fəxr edirik. Siz başda olmaqla, bütün Azərbaycan Ordusuna bu haqq yolunda yeni-yeni uğurlar arzu edirik. İnanırıq ki, Sizin cəsarətiniz və qəhrəman Ordumuzun şücaəti xalqımızı uğurlu gələcəyə aparacaqdır. Bu şərəfli yolda hamımız Sizə arxa və dayağıq. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”.

Qusar sakini Yüzbəy Abuyev: “Hörmətli cənab Prezident, biz qusarlılar Sizin siyasətinizə, Ordumuzun gücünə, zəfər çalacağımıza inanırıq. Bu haqq yolunda bir addım belə geri çəkilməyəcəyik. Qüdrətli Ordumuzun cəbhədəki uğurları tarixi torpaqlarımızın işğalçılardan təmizlənəcəyinə və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdacağına böyük əminlik yaradır. Əminik ki, xalqımız Sizin ətrafınızda həmişə olduğu kimi, sıx birləşərək mənfur düşmənlərimizə layiq olduğu yeri göstərəcəkdir. Cənab Ali Baş Komandan, cəbhə bölgəsindən gələn ürəkaçan, şad xəbərlərə görə Sizə minnətdarlığımızı bildiririk. Bu yolda Sizə və rəşadətli Ordumuza güc-qüvvət, yeni böyük uğurlar arzulayırıq. Zəfər bizimlədir, Qarabağ Azərbaycandır!”.

Şəki sakini Baba Səmədov dövlətimizin başçısına yazır: “Möhtərəm cənab Ali Baş Komandan, qısa zaman kəsiyində mənfur düşmən üzərində qazanılan uğurlar münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Allah qoysa, tezliklə bütün Qarabağın azad ediləcəyinə, şanlı Ordumuzun zəfər çalacağına əminik. Ən böyük arzumuz odur ki, üçrəngli bayrağımız Xankəndidə, Şuşada dalğalansın. Bu çətin və şərəfli işdə Sizə uğurlar diləyirəm. Qəti əmin ola bilərsiniz ki, xalq Sizin ətrafınızda çox sıx birləşib. Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, bizim əzəli torpağımızdır. Qarabağ Azərbaycandır!”.

İmişli sakini Almaz Abışov: “Cənab Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın bu günlərdə Sizin vahid komandanlığınız altında erməni terrorçulardan azad olunması xəbəri məni çox sevindirdi. Ona görə ki, 1991-ci ilin noyabr ayında Qarabağ uğrunda gedən qanlı döyüşlərdə mən dörd həmkarımla birgə həmin ərazidə vuruşmuşuq. Döyüşçü dostlarımdan biri Azərbaycanın Milli Qəhrəmanı İmamverdi Əliyev idi. Ovaxtkı rəhbərliyin siyasi səriştəsizliyinin acı nəticəsi olaraq, bir çox torpaqlarımızı itirdik. Cəbrayıl rayonu və Hadrut qəsəbəsinin bu günlərdə işğaldan azad edilərək, həmin ərazilərdə Azərbaycan bayrağının sancılması xəbəri məni sevinc göz yaşlarına qərq etdi. Çünki mən özüm də o ərazidə yaralanmışam. Bu gün təkcə mənim silahdaşlarım fərəhlənmir, eyni zamanda, həmin ərazilərdə şəhid olanların ruhları şad olur. Cənab Prezident, bütün bunları bizə yaşatdığınıza görə Sizə və qüdrətli Ordumuza öz adımdan və İmişli rayon polis şöbəsinin əməkdaşları və veteranları adından sonsuz minnətdarlığımızı bildiririk. Biz həmişə Sizinlə bir yerdəyik. Allah Sizə yar olsun!”.

Bakı şəhər sakini Tağı Məmmədov: “Cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycan xalqının öz ata-baba torpaqlarını erməni qəsbkarlardan azad etmək uğrunda apardığı mübarizə bizim üçün də bir çağırışdır. Məhkumluq həyatı yaşadığımdan mən bu mübarizədə iştirak edə bilmirəm. Ancaq hər zaman buna hazıram. Mənim hərbi təhsilim var. Bir çox silahdan istifadə etməyi mükəmməl bacarıram.

Cənab Prezident, razılıq olduğu təqdirdə, mən də bu yurdun bir oğlu kimi cəbhə bölgəsinə yollanmağa hazıram. Yetər ki, əmr edəsiniz”.

Paytaxt sakini Nicad Niyazi: “Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, bizə verdiyiniz qələbə müjdəli xəbərlərə görə Sizə təşəkkür edirəm. Hər zaman Sizi dəstəkləmişəm və dəstəkləyəcəyəm. Siz dünya siyasətçiləri arasında öz sözünü deyən qüdrətli, qətiyyətli, güclü bir lidersiniz. Sizin erməni cəlladlarına verdiyiniz tutarlı dərs ömür boyu onların yaddaşlarından silinməyəcək. Bütün xalq olaraq, Azərbaycan vətəndaşı olaraq Sizin atdığınız hər bir addımı dəstəkləyirik, Sizə güvənirik, hər zaman da güvənəcəyik. İnanırıq ki, işğal olunmuş bütün torpaqlarımızdan sonuncu düşmən cəlladları çıxana qədər mübarizəni davam etdirəcəksiniz. Sizin xalqa etdiyiniz müraciətlərinizdə dediyiniz hər bir söz bizim üçün bir sevincdir, ruh yüksəkliyidir, qələbə hissidir. Allah Sizi qorusun”.

Bakı sakini Uğur Şıxəlizadə: “Hörmətli cənab Ali Baş Komandan, mən Bakı şəhərində yaşayan bir məktəbli olaraq Azərbaycan Silahlı Qüvvələrinin 30 ilə yaxın düşmən tapdağı altında olan qiymətli torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində apardığı uğurlu əməliyyatlardan qürur duyuram. İnanırıq ki, yaxın vaxtlarda xilaskar Azərbaycan əsgərinin gücü və döyüş bacarığı sayəsində daha xoş xəbərlərin şahidi olacağıq. Bu bir neçə gündə gedən uğurlu əməliyyatlar mənə gələcəyin bir əsgəri kimi böyük qurur hissi yaşadır. Allah Sizə və ordumuza cansağlığı versin. Biz Sizə və güclü Ordumuza çox güvənirik. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”.

Sabirabad sakini Araz Budaqov: “Əziz və hörmətli Prezident, mən bu məktubu Sizə böyük sevinc və qürur hissi ilə yazıram. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq, bu gün Siz də xalqı sevir, onun inkişafı, dünya xalqları içərisində layiqli yer tutması üçün əlinizdən gələni edirsiniz. Siz xalq üçün işləyirsiniz. Xalqın xoşbəxtliyi üçün nə lazımdırsa, edirsiniz, qaçqın, köçkün və şəhid ailələrinə hər cür kömək edirsiniz. Ölkəmizdə baş verən bədbəxt hadisələr, təbii fəlakətlər zamanı Siz həmişə xalqın yanında olursunuz. Bu, hər bir vətəndaşı sevindirir, qəlbini qürur hissi ilə doldurur. Bu, xalqa olan böyük məhəbbətdir. Hörmətli və əziz Prezident, sentyabrın 27-də erməni işğalçıları növbəti dəfə təxribata əl ataraq Azərbaycana hücum etdilər. Sizin rəhbərliyinizlə ordumuz böyük qəhrəmanlıq göstərərək düşmənə layiqli cavab verdi. Torpaqlarımız azad edilir. Siz “Qarabağ Azərbaycandır!” deyəndə adamın sevincdən gözləri yaşarır. Sizin bütün çıxışlarınız insanların qəlbində sevinc, fərəh və qürur hissi yaradır. Allah Sizi qorusun. Əziz və hörmətli Prezident, Siz xarici televiziya telekanallarına müsahibələr verirsiniz. Hamısında da Vətən sevgisi, xalq məhəbbəti vardır. Ordumuz işğal olunmuş torpaqlarımızı geri aldıqca, irəli getdikcə, insanlar sevinir, sanki uçmağa qanadları çatmır. Qoy, Allah Sizi Azərbaycana çox görməsin. Ömrünüz uzun olsun. Allah Sizi və Azərbaycanı qorusun. Torpaqlarımız tam azad olsun və hər bir guşəsində Azərbaycan bayrağı dalğalansın. Cənab Prezident, ürəyimdə bir arzu və istək var. Siz cəbhədə baş verən hadisələr barədə məlumat verəndə Sizi qucaqlayıb bağrıma basmaq istəyirəm. Elə istəyirəm ki, müharibə tezliklə qurtarsın, qələbə çalınsın. Yaşasın Azərbaycan xalqı və onun Prezidenti İlham Əliyev! Yaşasın qəhrəman Azərbaycan Ordusu! Qoy ədalət həmişə zəfər çalsın!”.

Yardımlı rayonundan Raqil Baloğlanov: “Hörmətli cənab Ali Baş Komandan, son həftələr Ordumuzun göstərdiyi igidlik Sizin uğurlu addımlarınızın bariz nümunəsidir. Sizin məqsədyönlü siyasətiniz bir daha göstərdi ki, Azərbaycan hər şeyə qadirdir. Bu gün Azərbaycan Ordusu torpaqlarımız uğrunda qəhrəmanlıqla vuruşur. Əsgərlərimiz canından keçər, amma bir qarış torpağı geri verməz. Mən azərbaycanlı və Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olduğum üçün qürur duyuram. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”.

Bakı şəhər sakini Abdullah Nəzərli: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin uğurlu siyasətiniz sayəsində biz bu gün Qarabağda uğur əldə edirik. Biz 30 il səbir etdik. Amma bu illər ərzində işimizdə səbirlə yanaşı, qəti əminlik də var idi. Əmin idik ki, rəhbərliyinizlə doğma Qarabağı erməni işğalından azad edəcəyik. O günlər yetişdi. 30 ildən sonra müqəddəs borcumuzu yerinə yetirməyə başladıq. İnşallah, bu yaxınlarda bütün Azərbaycan, həmçinin dünya “Qarabağ torpaqları tamamilə erməni işğalından azad olundu” xəbərini eşidəcək. Allah Sizi qorusun. İnşallah, Azərbaycan bayrağı Şuşada dalğalanacaq. 30 il sonra Ağdamda, Şuşada, Qarabağımızın hər yerində məscidlərimizdə namaz qılınacaq, azan oxunacaq. Amin. Biz məktəblilər tarixə yazılacaq bu hadisələri canlı izlədiyimizə, təkcə kitablardan oxumadığımıza görə xoşbəxtik”.

# İLHAM ƏLİYEV - Prezident, Lider və Böyük Sərkərdə!

## *Dünyanın nüfuzlu liderlərindən biri kimi tanınan Azərbaycan Prezidenti bu mərtəbəyə necə yüksəldi?*



***2003-cü il oktyabrın 15-i Azərbaycanda yeni bir epoxanın başlandığı tarixdir. Belə ki, 17 il əvvəl ölkəmizdə keçirilən prezident seçkilərində xalqımız ümummilli lider Heydər Əliyevin siyasi varisi, respublikanın baş naziri İlham Əliyevə tam etimad göstərərək onu özünə dövlət başçısı seçdi. Bu tarixdən başlayaraq Azərbaycanda yeni bir era başladı- inkişaf və yüksəliş erası.***

Dünya reallığı qüdrətli və böyük dövlətlərin liderlərinin daha çox nüfuza malik olduğunu həmişə göstərib. Kiçik dövlətlərin liderləri çox nadir hallarda dünya səviyyəsində tanınan, nüfuza malik olan şəxsiyyət olur. Belə azsaylı istisnalardan biri də Azərbaycan Prezidenti İlham Əliyevdir. İlham Əliyev öz fəaliyyəti ilə göstərdi ki, dövlətin kiçik və ya böyük olmasının onun liderinin beynəlxalq aləmdə nüfuz və hörmət sahibi olmasına o qədər də təsir göstərmir.

### Yeni Prezident, böyük strategiya, çətin yol...

Ümummilli lider Heydər Əliyev Azərbaycanın sürətli inkişafı və qüdrətlənməsi üçün xüsusi strategiya işləyib hazırlamışdı. Amma onun bu işi başa çatdırmağa fiziki baxımdan vaxt kifayət etmədi. Bu işi davam etdirmək, uğurla başa çatdırmaq üçün onun sözün bütün mənalarında varisi olmalıydı. Belə varis isə onun ailəsində yetişmiş, onun məktəbini keçmiş, praqmatik düşüncəli, dərin zəkalı, ekstremal vəziyyətdə ən düzgün qərarlar verə bilən İlham Əliyev idi.

17 il əvvələdək xalqımız onu daha çox ümummilli liderin oğlu, MOK-un prezidenti, Milli Məclisin deputatı, Dövlət Neft Şirkətinin vitse-prezidenti, Baş nazir yüksək mədəniyyətə və intellektə malik ziyalı kimi tanıyırdı.

Lakin məhz həmin ildən dövlət başçısı seçilən İlham Əliyev qısa müddətdə özünün idarəçilik, ölkəyə, xalqa rəhbərlik xüsusiyyətlərinin də mükəmməl olduğunu isbat edərək xalqın tam və qəti etimadını qazandı. Çox qısa müddətdə o, ümummilli liderin "Mən ona özüm qədər inanıram" sözlərini əməlləri ilə təsdiq etdi və Azərbaycanda yeni bir dövrün, eranın başlanğıcının əsasını qoydu.

Prezident kimi fəaliyyətinin ilk illəri əlbəttə, çox çətin idi. Qarşıda yarımçıq qalan işlərin davam etdirilməsinə ehtiyac duyulan, ərazisinin 20 faizinin içğal altında olan, qaçqın və məcburi köçkünlərin problemləri, ordusunun təkmilləşməsinə zərurət olan bir ölkəyə rəhbərlik asan deyildi. Bütün bu və digər problemlər həll edilməli idi. Bunun üçün ilk növbədə güclü iqtisadiyyat lazım idi.

Azərbaycanın iqtisadi inkişafının əsasını ümumilli lider öz strategiyası ilə müəyyən etmişdi. Lakin bu işlərin reallaşdırılması nəhəng maliyyə imkanları, xeyli vaxt və enerji, həmçinin praqmatiq düşüncə tələb edirdi. Bütün bunları özündə birləşdirən qətiyyətli və uzaqgörən liderə ehtiyac çox idi. İlham Əliyev məhz belə bir anda, məhz belə keyfiyyətlərlə ortaya çıxdı...

Hakimiyyətin ilk illərində yeni dövlət başçısını ağır işlər gözləyirdi. Ölkənin mümkün potensialından düzgün və effektiv istifadə etmək, qısa müddətdə böyük nailiyyətlər əldə edilməsi lazım idi. Gənc rəhbər çətinlikdən, əziyyətdən qorxmadı və qısa müddətdə zəhmət öz bəhrəsini verdi.

### Yeni Prezident yeni ölkə qurmağa nədən başladı?

İlham Əliyev bəyan etmişdi ki, güclü dövlət üçün güclü iqtisadiyyat lazımdır. Çünki ölkənin bütün sahələrinin inkişafı iqtisadiyyatın bazasında mümkün ola bilər. Ona görə də, əsas güc iqtisadi inkişafa verildi. Həyata keçirilən iqtisadi proqramlar, sahibkarlığa dövlət dəstəyi, investisiyaların cəlb edilməsi nəticəsində ölkənin ümumdaxili məhsulu artmağa başladı. Bunun nəticəsi olaraq, dövlət büdcəsinin gəlirləri çoxaldı, ticarət və pul dövriyyəsinin həcmi artdı, məşğulluq səviyyəsi yüksəldi. Bu isə öz növbəsində tikinti, bərpa və quruculuq işlərinin sürətlənməsinə, şəhər və kəndlərin abadlaşmasına, nəqliyyat və kommunal infrastrukturların yenilənməsinə imkan yaratdı.

Bununla yanaşı, biznes mühiti sağlamlaşdırıldı, hökumətdə kadr islahatları aparıldı, vergi yükü azaldıldı, kiçik və orta biznesə dəstək artırıldı. Bütün bu işlərin nəticəsi olaraq xarici investisiyalar artmağa başladı. Təsadüfi deyil ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası "Doing Business" hesabatında Azərbaycanı 2008-ci ilin ən islahatçı ölkəsi elan etdi.

Artıq regional və beynəlxalq iqtisadi layihələr, xüsusən enerji və nəqliyyat layihələri uğurla işləməyə başlayırdı. Müxtəlif ölkələrlə iqtisadi, ticari, hərbi, siyasi, elmi-texniki, mədəni əməkdaşlıq xeyli artdı. Beynəlxaql təşkilatlarda mövqelərimiz gücləndi. Beləliklə, cəmi 10 ildə ölkənin siması tamamilə dəyişdi. Azərbaycanın çox böyük iqtisadi və maliyyə imkanları yaradıldı, ölkəmiz abad və müasir məkana çevrildi, qüdrətli ordu formalaşdı, sosial rifah artdı.

Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Məhz bu səbəbdən son illərdə neft qiymətlərinin kəskin azalması və qlobal iqtisadi böhran nəticəsində yaranmış kəsiri qeyri-neft sektorunun inkişafı kompensasiya etdi. Ölkəmizin makroiqtisadi göstəricilərinin yüksəkliyi də beynəxalq imicimizin möhkəmlənməsinə təsir edir. Beynəlxalq təşkilatların hesabat və proqnozlarına görə, Azərbaycan MBD-də və dünyada ən inkişafda olan ölkələrdən biridir.

Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business 2020" hesabatına əsasən Azərbaycan 20 ən islahatçı ölkə sırasına daxil olub. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında ölkəmiz hökumətin uzunmüddətli strategiyası üzrə 10-cu, islahatlara yönəlmə səviyyəsi üzrə 5-ci yeri tutub.

"U.S.News" jurnalının tərtib etdiyi ən güclü ölkələr reytinqində Azərbaycan 80 ölkə arasında 45-ci yerdə qərarlaşıb.

Bu gün Azərbaycan 50 milyardlıq strateji valyuta ehtiyatları, 25 milyardlıq dövlət büdcəsi, 80 milyardlıq ÜDM- i ilə dünya iqtisadi məkanında güclü dövlət kimi tanınır.

Azərbaycanda güclü iqtisadiyyat yaratmaq planı uğrula başa çatdırılmışdı. Növbədə digər sahələrdə yüksəliş yaratmaq idi.

### Azərbaycanı sosial rifah dövlətinə çevirən rəhbər

İqtisadi yüksəliş təmin edildikdən sonra sosial sahədə əsil inqilab baş verdi. Əhalinin sosial rifahının artırılması üçün çoxsaylı islahatlar, proqramlar həyata keçirildi. Son 17 ildə ölkədə 1,5 mln yeni iş yeri açıldı, yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə düşdü, aztəminatlı kateqoriyaların sosial müdafiəsi daha da gücləndirildi. Bu müddətdə müharibə əlilləri, şəhid ailələri və qaçqın-küçkünlər üçün onlarla yeni şəhərcik, minlərlə bina tikilib, yüz minlərlə vətəndaş mənzillə təmin olunub.

Təhsil sahəsində də böyük işlər görülüb. Bu müddətdə ölkədə 2 mindən artıq məktəb tikilib və ya bərpa olunub, yeni ali və orta məktəblər yaradılıb, təhsil islahatları aparılıb.

Səhiyyə sistemi başdan-başa yenilənib. Dünyanın ən müasir avadanlıqları ilə təmin olunmuş yüzlərlə səhiyyə ocağı tikilib. Ən ucqar rayonlarda belə müasir xəstəxanalar yaradılıb, əhalinin sağlamlığının təmin edilməsi, insanların yaxşı tibbi xidmət ala bilməsi üçün İcbari Tibbi Sığorta sistemi tətbiq olunub.

Dövlət başçısının "Sağlam cəmiyyət güclü dövlət deməkdir" prinsipi ilə həyata keçirdiyi siyasət artıq öz bəhrələrini verib. İlham Əliyevin xalqımıza verdiyi söz müasir Azərbaycanın inkişafına, tərəqqisinə yönələn fəaliyyətin konsepsiyasına çevrilib.

Koronavirus epidemiyası dünya ölkələrini çətin vəziyyətə salanda Azərbaycan dövləti vətəndaşlarını qorumağı təmin etdi. Bütün beynəlxalq təşkilatlar da Azərbaycanın qlobal pandemiya dövründə özünü nümunəvi ölkə kimi təsdiqlədiyini etiraf etdilər.

"Bizim siyasətimizin əsasında vətəndaş amili dayanır" deyən ölkə başçısı öz sosial islahatları ilə vətəndaşların rifahını və sağlam şəraitdə yaşamasını təmin etmək üçün əlindən gələn hər şeyi etdi.

Beləliklə, sosial-humanitar sahələrdə də yüksəliş uğurla başa çatdı.

### Dünya səviyyəli liderin beynəlxalq nüfuzu

Öz fəaliyyəti ilə regionun və dünyanın nüfuzlu liderlərindən birinə çevrilən İlham Əliyev bu statusu həm daxili, həm xarici siyasəti sayəsində qazandı. Qısa müddətdə rəhbərlik etdiyi ölkəni sürətli inkişaf modelinə çevirən, demokratik dövlət quruculuğu və sosial-mədəni institutların təqdiralayiq fəaliyyəti ilə dünyada tanıdan, beynəlxalq dialoqlar və yarışlar məkanına çevirən bir liderin dünyadakı böyük nüfuzu təəccüblü görünə bilməz.

Azərbaycan Prezidentinin sülhsevər və xeyirxah siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi faktlarının sayı çoxdur. İlham Əliyev bir neçə dəfə beynəlxalq təşkilatlar tərəfindən "İlin adamı" elan olunub, ona müxtəlif ölkələrin ali mükafatları təqdim olunub, müxtəlif sorğularda lider seçilib.

Azərbaycan Prezidenti İlham Əliyevin tez-tez dünyanın ən nüfuzlu liderlərindən biri elan olunması təbii ki, onun fəaliyyətinin məntiqi nəticəsidir. Çünki O, XXI əsrdə dövlətlərin böyüklüyünün, yaxud kiçikliyinin fərq etmədiyini, dövlətin müstəqil siyasət yeridə bilməsinin əsas olduğunu ortaya qoydu.

Azərbaycan lideri bəşəri və milli-mənəvi dəyərlərə sadiqliyini sözdə deyil, əməli işdə dünyaya nümayiş etdirib. Humanizm prinsiplərinin bəşəriyyətin ən böyük dəyətri olduğunu, dünyada sülhün, əməkdaşlığın təmin olunmasının vacibliyini ən uca tribunalardan dünyaya bəyan edib.

Bəs dünyada lider kimi qəbul olunan İlham Əliyev xalqın liderinə necə çevrildi?

### Prezidentlikdən milli liderliyə gedən yol

Dövlət başçısının apardığı siyasət nəticəsində ölkədə sosial-iqtisadi vəziyyət xeyli yaxşılaşıb, multikultural ənənələrə və milli-mənəvi dəyərlərə söykənən bir cəmiyyətin formalaşması təmin edilib, bütün ictimai institutlar, ziyalılar Azərbaycançılıq ideologiyası ətrafında birləşərək ümumi maraq və mənafelər uğrunda çalışmağa başlayıb.

Dövlət başçısı həmişə vurğulayır ki, insan hüquq və azadlıqlarının, o cümlədən, soz və fikir azadlığının müdafiəsi Azərbaycan dövlətinin ali məqsədi və fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir.

Dövlətimizin humanizm siyasətini yüksək dəyərləndirən xalqımız mütamadi olaraq imzalanan əfv fərmanlarını təqdir edir. Onun çıxışlarında bu fikir hər zaman qeyd olunur ki, Azərbaycan dövləti siyasətində insan amilinə yüksək dəyər verir.

Bütün bunlar ölkədə ictimai-siyasi sabitliyə rəvac verir. Məhz bu səbəbdən də vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi sahəsində ciddi nəticələr əldə olunur. Ölkəmizin milli-mənəvi dəyərlər üzərində inkişaf etməsinin dövlət siyasətinin əsas prinsipi olduğunu deyən milli lider multikultural bir ölkədə yaşayan bütün insanları vahid platformada- Azərbaycançılıq ideologiyası ətrafında birləşdirib.

Çətin günlərdə - təbii fəlakətlər, qəzalar və sair ağır vəziyyətlərdə onu həmişə zərərçəkən vətəndaşların yanında görmək olar. Müharibə əlillərinin, şəhid ailələrinin, qaçqın və köçkünlərin evində tez-tez qonaq olan milli lider bu evləri onlara bəxş etməyin dövlətin vəzifəsi olduğunu vurğulayır və vətəndaşlara dövlətin onların arxasında dayandığını əyani surətdə göstərir. Belə situasiyalarda səmimi və sadə insan xarakteri dövlət rəhbəri xarakterini kölgədə qoyur ki, bu da lideri prezidentdən fərqləndirən əsas cəhətlərdən biridir.

*Ardı Səh. 12*

# İLHAM ƏLİYEV - Prezident, Lider və Böyük Sərkərdə!

Əvvəli Səh. 11

Vətəndaşlar da məhz bu səbəbdən öz liderinin, öz dövlətinin arxasında dayanır. Beləcə xalq-lider-dövlət birliyi həm ölkənin gücünü artırır, həm də Azərbaycanın gələcəyi üçün üçün gözəl gələcək vəd edir.

İlham Əliyev bütün dünya üzrə ölkə daxilində ən çox səfərlər edən, müxtəlif tədbirlərdə, açılışlarda, bayram mərasimlərində, xatirə günlərində xalqın içində, vətəndaşların yanında olan liderdir. Onun vaxtının çoxu iş otağında yox, açıq havada, xalqın içində, görüşlərdə keçir. Problemləri vətəndaşın öz dilindən şəxsən dinləyir və həllini təmin edir. İnsanlar da bunu görür, qiymətləndirir və onu milli lider kimi qəbul edir.

## Sərkərdə, Ali Baş Komandan və hərbi strateq

Prezident kimi İlham Əliyevin vətən və xalq qarşısında ən böyük xidmətlərindən biri də onun qüdrətli ordu yaratmasıdır. Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Keçən 17 ildə Ali Baş Komandanın səyi ilə ordumuzun maddi-texniki bazasını inanılmaz dərəcədə möhkəmləndirilib, ordumuz peşəkar kadrlarla zənginləşib. Demişdi ki, bu ordu düşməni tam darmadağın etməyə və torpaqlarımızı azad etməyə qadirdir. Lakin bunu təcrübədə sübut etmək lazım idi.

Qan tökülməsini istəməyən Azərbaycan Prezidenti telemüraciətində Ermənistanın başqa yol qoymadığını bəyan etdi: "Mən Ermənistana dəfələrlə xəbərdarlıq etmişdim. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs verirık və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və torpaqlarımızı azad edir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

Beləliklə, Azərbaycan öz işğal olunmuş ərazilərini hərbi yolla azad etmək üçün əməliyyatlara başladı. İlk günlərdən işğalçı orduya və Qarabağda yerləşdirilən terrorçu dəstələrə sarsıdıcı zərbələr vuran, düşmənin xeyli canlı qüvvəsini, hərbi infrastrukturunu, texnikasını məhv edən Azərbaycan Ordusu qısa müddətdə 50-ə yaxın yaşayış məntəqəsini və xeyli strateji yüksəkliyi geri aldı.

Müharibə başlayan kimi, mükəmməl hərbi strategiya üzrə düşmənə qarşı elə mükəmməl bir hərbi taktikalar tətbiq olundu ki, dünyanın nüfuzlu hərbi mütəxəssisləri, Amerika, Hindistan, Rusiya, Britaniya kimi dövlətlərin ordu generalları belə buna heyrətini bildirdilər və öz ordularının bundan nümunə götürməli olduğunu etiraf etdilər. Onu da vurğuladılar ki, Qarabağ bölgəsinin relyefi və strateji yüksəkliklərin ermənilərin əlində olması hücum edən tərəf üçün son dərəcə əlverişsizdir və dünyada orada qurulmuş güclü müdafiə sistemlərini belə tez və minimum itki ilə darmadağın edə biləcək az sayda ordu ola bilər.

Bəli, bu gün Azərbaycan Ordusu çox güclüdür. Lakin güclü ordunun olması heç də hər şey demək deyil. Qələbə üçün bu orduya komandanlıq edən, onu düzgün idarə edən, strategiyasını və taktikasını yüksək peşəkarlıqla müəyyənləşdirən bir sərkərdənin varlığı mütləqdir. Qarabağda Ordumuzun genişmiqyaslı azadetmə əməliyyatları başlayanda bütün xalqımız və bütün dünya həm ordumuzun, həm də onun Ali Baş Komandanının peşəkarlığını gördü.

Qələbənin daha bir vacib şərti orduda mənəvi-psixoloji ruhdur. Bunu yaratmaq asan məsələ deyil. Azərbaycan əsgəri Ali Baş Komandanın bir əmri ilə irəli atıldı və vətən uğrunda canını gözünü qırpmadan qurban verərək torpaqlarımızı azad etməyə başladı. Yüz minlərlə mülki vətəndaş könüllü şəkildə döyüşə aparılmaları tələbi ilə hərbi komissarlıqlara hücum etdi. Bu sadə bir iş deyil. Yalnız dövlətinə, liderinə böyük inamı olan insanlar buna qadirdilər. Və bu inamı, etibarı formalaşdıra biləcək lider, ordunu qələbəyə aparacağına inanılan sərkərdə olmalıdır.

Bu gün də xalqımız Ali Baş Komandanın ətrafında sıx yumruq kimi birləşib ümumi düşmənə qarşı müxtəlif cəbhələrdə döyüşürhəm hərb meydanında, həm siyasi-diplomatik, həm informasiya müharibəsində, həm kibermüharibədə və s.

Bu hər prezidentə qismət olası tale deyil. Bunun üçün prezident olmaq kifayət etmir, lider olmaq və sərkərdə olmaq lazım gəlir. Bu isə çox nəhəng enerji, fədakarlıq, intellektuallıq, başarılılıq kimi xüsusiyyətlər tələb edir.

Məhz bu keyfiyyətlərə malik olduğu üçün xalqımız İlham Əliyevi təkcə prezident olaraq görmür, daha çox lider, sərkərdə kimi görür və onun arxasınca gedir. Belə bir xalq və prezident-lider-sərkərdə birliyi ilə Qələbənin təminatçısıdır.

Beləliklə, Azərbaycan tarixində ən böyük və ən mühüm işin icrasına başlayan İlham Əliyevin ətrafında nəinki bütün vətəndaşlarımız, həmçinin dünyada yaşayan çoxmilyonluq xalqımız birləşib. Bu milli birlik, dövlət-xalq vahidliyi, bu siyasi iradə və əzm Böyük Qələbənin təminatçısıdır. Hər bir azərbaycanlı Ali Baş Komandana inanır və Qələbəyə əmindir.

Bu Qələbə Ali Baş Komandanın Milli Qəhrəman kimi tarixímizdə əbədi yer tutacağına şübhə yeri qoymur.

## Azərbaycan: İlham Əliyevlə xoşbəxt gələcəyə

Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Məhz bu səbəbdən Qarabağı işğaldan təmizləmə əməliyyatı başlayanda dünyanın güclü dövlətlərinin demək olar ki, heç biri Azərbaycanın mövqeyinin əleyhinə bəyanat vermədi. Bütün ölkələrlə müxtəlif sahələrdə yaxşı əməkdaşlığımız var.

Millin liderin yürütdüyü uğuru siyasət isə ölkənin hərtəfəli inkişafının və durmadan güclənməsinin elə möhkəm təməlini qoyub ki, bu təməli dağıtmaq mümkün deyil.

Torpaqlarımız azad olunandan sonra ölkəmizin inkişafı daha da sürətlənəcək. Sosial rifah daha da artracaq. Müharibəyə, orduya xərclənən nəhəng vəsaitlərin sosial iqtisadi, hiumanitar sahələrə yönəldilməsi vətəndaşların rifahlnı gücləndirəcək.

Beləliklə, Azərbaycan dünyada nüfuz sahibinə çevrilməsi, onun iqtisadi-sosial inkişafı xalqımızın gələcəyini indidən təmin edib.

İlham Əliyevin xalqdan aldığı dəstəyin təməlində onun Heydər Əliyev siyasətinə sadiqliyi dayanır. "Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Ancaq müstəqilliyi əldə etməkdən daha çətini onu qoruyub saxlamaq, möhkəmləndirməkdir. Bu gün Azərbaycan sözün əsl mənasında müstəqil ölkədir, biz həm daxildə, həm də xaricdə müstəqil siyasət aparırıq. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir"- İlham Əliyev öz fikrini açıq ifadə edib.

İlham Əliyevin ölkəmiz, xalqımız qarısında həyata keçirdiyi işlərin sadəcə adlarını belə bir kiçik yazıya sığışdırmaq olmaz. Məqsədimiz hamısını burda sadalamaq da deyil. Ən böyük qiyməti ona həmişə Azərbaycan xalqı verib - ardıcıl özünə dövlət başçısı seçməklə və onun siyasətinə inandığını göstərməklə. Onu təkcə prezident kimi deyil, milli lider və sərkərdə kimi qəbul etməklə. Onun arxasında vahid bir yumruq kimi birləşməklə.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət Azərbaycanı xoş gələcəyə aparır. Bunu görməmək, qiymətləndirməmək və buna sevinməmək mümkün deyil. Bunun üçün sadəcə, azərbaycanlı olmaq yetər...

***Bəhruz Quliyev,***
***SƏS qəzetinin baş redaktoru***

# "Müstəqilliyimizin son 17 ilindəki tarix bizim qürur tariximizdir"

***"Bu gün Azərbaycan prezidenti İlham Əliyevin ilk dəfə prezident seçilməsindən 17 il ötür. Təbii ki, müxtəlif rakurslardan müxtəlif cür qiymətləndirmələr aparmaq və ən müxtəlif nəticələrə gəlmək olar. Ancaq bir şey əvvəldən aydındır ki, bütün hallarda və yanaşmalarda əldə olunan nəticə qürurverici olacaq. Son 17 il ərzində Azərbaycan dövlətçilik tarixində heç vaxt əldə etmədiyi qədər böyük nəaliyyətlər əldə edib.***



Xüsusən indiki mürəkkəb tarixi şəraitdə cəmi 17 il ərzində dövlətin, dövlətçiliyin və insani resursların inkişafı ilə bağlı 100 illik bir inkişaf yolu keçib". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Deputat bildirib ki, mən bu yanaşmanı bir qədər daha konkretləşdirərək sadəcə bu gün çox aktual olan bir faktın üzərindən fikirlərimi əsaslandırmaq istəyirəm: "Bu, hərbi, ordu quruculuğu faktorudur. Çünki dövlətin dövlət olmasını təmin edən heç şübhəsiz ki, onun ordusudur. Sadəcə ordu quruculuğu üzərindən biz son 17 ildə əldə etdiyimiz nəaliyyətləri göz önündən keçirsək görəcəyik ki, Azərbaycan məhz 21-ci əsrin ordusunu qurmaqla bu gün döyüş meydanında xarüqələr yaradır. Ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın hərbi-siyasi tarixini yenidən yazır. 1828-ci ildən bu günə qədər döyüş meydanında Azərbaycan ordusunun əldə etmədiyi uğurlar əldə edib, zəfərlər qazanır. Hətta bu tarixi bir qədər də geriyə çəkmək olar. 1847-ci ildə Nadir Şahın ölümündən və Əfşarlar dövlətinin süqutundan sonra Azərbaycan çoxsaylı savaşlar apardı. Qacarlar sülaləsi yenidən hakimiyyətə gələrək imperiya qurdular, amma əksər hallarda müharibələrdə məğlub oldular".

H.Babaoğlu vurğulayıb ki, millətimizin hərbi-siyasi tarixini bir bütöv olaraq götürsək hazırki tarixi mərhələdəki bu dövr məhz təqribən son 250 ildə Azərbaycanın böyük zəfərlər əldə etdiyi dövr kimi xarakterizə olunur və gələcəkdə tarixçilər də bunu bu cür qiymətləndirəcəklər: "Düşünürəm ki, ordu quruculuğunda Azərbaycan Prezidenti neçəki 21 əsrin ordusunu yarada bilibsə, dövlət qurucuğunun bütün istiqamətlərində də eyni uğurla, eyni keyfiyyətdə nəaliyyətlər əldə etməyi bacarıb. Bu hadisələr o qədər əhəmiyyətlidir ki, bundan sonrakı tarixi mərhələdə nəyinki, xalqımızın dövlətçilik tarixində yeni bir mərhələ açacaq, eyni zamanda bütövlükdə Cənubi Qafqazda yeni münasibətlər sisteminin əsasını qoyacaq. Bu münasibətlər sistemində Azərbaycan tarixən oynadığı rolu yenidən özünə qaytarmış olacaq. Ona görə də müstəqilliyimizin son 17 ilindəki tarix bizim qürur, inkişaf, özünədönüş tariximizdir".

***Aysel Məmmədova***

# Müdafiə Nazirliyi: Azərbaycan təyyarəsinin vurulması xəbəri dezinformasiyadır



Ermənistan KİV-nin Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus Su-25 təyyarəsinin vurulması barədə yaydığı məlumat yalandır və düşmən tərəfinin növbəti dezinformasiyasıdır. Bu barədə SİA-ya Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Nazirlik rəsmi olaraq bildirir ki, oktyabrın 15-də Azərbaycan HHQ-nin döyüş aviasiya vasitələri tətbiq edilməyib və heç bir Su-25 döyüş təyyarəsi havaya qaldırılmayıb.

# "Xalqımız haqlı olaraq İlham Əliyevi Qurucu Prezident adlandırır"



"Cənab Prezidentimiz İlham Əliyevin hakimiyyəti illərində ölkəmizin müxtəlif sahələrdə inkişafı barədə çoxlu əsərlər yazılıb və bundan sonra cild-cild əsərlər yazılacaq". Bunu SİA-ya millət vəkili Musa Qasımlı deyib. Deputatın sözlərinə görə, 2003-cü ildən sonrakı illər Azərbaycanın müasirləşməsi, modernləşməsi, güclü dövlətin qurulması illəridir: "Millətimiz haqlı olaraq prezidentimizi Qurucu Prezident adlandırır. Bu gün Azərbaycan söz sahibi olan dövlətdir. Biz son 100 illik tariximizdə ilk dəfə olaraq işğal edilmiş torpaqlarımızı azad edirik, tariximizin şərəfli günlərini yaşayışırıq".

# Könül Təhməzova: "Təhsil işçiləri də Ali Baş Komandanın yanındadır"

***"Azərbaycan öz şanlı tarixində növbəti zəfər, qalibiyyət addımlarını atır və xalqımız Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin işğal altındakı torpaqlarımızın azadlığı uğrunda başlatdığı ədalətli mübarizəsinə birmənalı dəstək göstərir. Azərbaycan xalqı dövlətinin, liderinin ətrafında yumruq kimi birləşib və bu vahidlik düşmənə vurulan daha bir sarsıdıcı zərbədir".***



Sözügedən fikirləri SİA-ya Bakı şəhəri, Məmməd Rahim adına 7 saylı tam orta məktəbinin direktoru Könül Təhməzova bildirib. Onun sözlərinə görə, bu gün Qarabağ cəbhəsində ard-arda azad edilən torpaqlarımız, kəndlərimiz, şəhərlərimiz onsuz da ağır və böhranlı olan Ermənistanı daha çətin vəziyyətə salır, o cümlədən, bizim qalibiyyətimizin əsas səbəblərindən biri də güclü iqtisadiyyatımız və aldığımız beynəlxalq dəstəklərdir. "Əbəs deyil ki, cənab Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənabları bütün çıxışlarında qətiyyətlə vurğulayır ki, getdiyimiz yol yalnız zəfər və qələbə yoludur", deyən Könül Təhməzova qeyd edib ki, dövlətimizin başçısının müxtəlif xarici televiziyalara verdiyi müsahibələrində Azərbaycan xalqının və dövlətinin haqlı mübarizə aparması fikirlərini də xatırladıb: "Möhtərəm Prezidentimiz öz açıqlama və bəyanatlarında Azərbaycanın öz torpaqlarında döyüşdüyünü bildirib. Halbuki, Ermənistanın işğalçı rəhbərliyi, bu ölkənin baş naziri Nikol Paşinyan müxtəlif yalan, şər-böhtanlı məlumatlar əsasında beynəlxalq ictimaiyyətin Azərbaycanın haqq işini dayandırması üçün bizə təzyiqlərin göstərilməsi istiqamətində var qüvvəsi ilə çalışır və gördüyümüz kimi, həmin dəstəyi ala bilmir. Ümumiyyətlə, işğal edilmiş ərazilərimizin azad olunması istiqamətində başladılan hərbi əməliyyatlar beynəlxalq hüququn bizim tərəfimizdə olması ilə üst-üstə düşür. Prezident İlham Əliyev cənablarının da vurğuladığı kimi, biz öz torpaqlarımızda işğalçıya qarşı mübarizə aparırıq. Bu gün "Bizim yolumuz haqq yoludur və qələbə bizimlədir!" şüarı hər bir vətənsevər azərbaycanlının həyat kredosuna, amalına çevrilib. Bəli, biz dünya dövlətləri tərəfindən tanınan sərhədlərimizin bərpası üçün öz ərazimizdə işğalçıya qarşı vuruşuruq. Hər kəsə də aydındır ki, işğalçı, təcavüzkar dövlət Ermənistan, işğala məruz qalan isə Azərbaycandır. Bəli, işğalçı və təcavüzkar cəzalandırılmalıdır".

Könül Təhməzova yağı və mənfur düşmənin əməllərinə görə ən ağır cəza alacağını da qeyd edib: "Bu gün Ermənistanın və onun marioneti hesab edilən qondarma "dqr"in separatçı, quldur hərbi birləşmələri dinc şəhərlərimizi, mülki əhalimizi atəşə tutmaqla qələbə yolumuzdan dönəcəyini sanırlar. Ancaq unudurlar ki, Azərbaycan xalqı əzmkardır və bu əzmi, qətiyyəti, iradəni heç bir qüvvə sındıra bilməz. Gəncə şəhərində törədilən terror aktı artıq dünyanın bir çox ölkələri, nüfuzlu qurumları tərəfindən pislənilməkdə, lənətlənməkdədir. Hətta humanitar atəşkəsin əldə olunmasına baxmayaraq, düşmən buna əməl etmədi. Əslində, daha əvvəllər mövcud olan atəşkəs rejimində də düşmən mülki əhalimizi hədəfə alır, onlara qarşı terrorçuluq fəaliyyəti həyata keçirirdilər. Bu baxımdan, hələ 1992-ci ildə Xocalı soyqırımını törədən mənfur düşmən indi də qocalarımızı, qadınlarımızı, uşaqlarımızı hədəfə alırlar. Bu gün Azərbaycanın rəşadətli Ordusu məhz dövlət siyasətinə çevrilmiş terrora, faşizmə qarşı mübarizə aparmaqdadır ki, gələcəkdə bir daha belə qanlı hadisələr yaşanmasın. İnsanlarımız öz doğma yurd-yuvalarına geri dönsünlər, rahat, firavan həyatlarını yaşasınlar".

"Beynəlxalq ictimaiyyət də çox gözəl anlayır ki, təcavüzkarın ünvanı Bakı yox, məhz İrəvandır", deyən məktəbin direktoru sonda onu da bildirib ki, ailədən başlayan vətənpərvərlik tərbiyəsini təhsil müəssisələri davam etdirməlidir. Təhsil müəssisələri hər bir xalqın tərəqqi qapısıdır: "Övladlarımızın vətənpərvər ruhda böyüməsi, vətənini sevən, onun uğrunda ölməyə belə hazır olan mərd şəxsiyyətlər kimi yetişməsində vətənpərvər müəllimlərin rolu böyükdür. Bu gün könüllü olaraq ön cəbhədə vuruşmağa gedən müəllimlərimiz, təhsil işçilərimiz var və onlar şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşmasında, vətənpərvərlik ruhunun aşılanmasında örnək oldular. Bir daha vurğulamaq istərdim ki, bu gün təhsil işçiləri də daxil olmaqla Azərbaycan xalqı öz Ali Baş Komandanının yanındadır və ona inanır, ona güvənir."

***Rövşən RƏSULOV***

# "Gəncə təxribatı erməni faşizminin əsl simasıdır"

***İngilis səyyahı Vilson ermənilər haqqında deyib: "Ermənilər acgöz və tamahkardırlar. Onlar istənilən bir cəfəngiyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və intriqaları sevirlər". Bu gün bu alçaq, abırsız faşist xislətli təcavüzkar olmaqla yanaşı qorxaq və rəzil olan Ermənistanın savadsız, sərsəm, xəstə təxəyyüllü baş naziri Nikol Paşinyanın sentyabrın 27-si səhər saat 6.00-da Azərbaycana qarşı işğalçılıq siyasəti bir daha Nikolun faşist mahiyyətini bütün dünyaya göstərir.***



Oktyabrın 10-dan 11-nə keçən gecə saat 2 radələrində Ermənistanın dinc sakinlərin yatdığı bir vaxtda cəbhə bölgəsindən 100 km uzaq olan Gəncə şəhərinə raket atması bir daha sübut edir ki, terrorçu dövlətin anti- insani, faşist simasını ifşa etdi. Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskva görüşü nəticəsində elan edilən humanitar atəşkəsi pozmas riyakarlıqdan başqa bir şey deyil. Humanitar atəşkəslə bağlı razılaşmadan sonra Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncə şəhərində mülki vətəndaşların atəşə tutulması barbarlığın daha bir bariz nümunəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənabları bu məsələ ilə bağlı qeyd edib ki, bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür: "Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki, bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki, mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin".

Bu gün Ermənistan ərazisindən atılan raketlə Gəncədə yaşayış binasının atəşə tutulması, çox sayda dinc sakinlərin qətlə yetirilməsi vandalizmin, vəhşiliyin son həddidir. Ancaq Azərbaycan həm beynəlxalq hüquq, həm də ədalət baxımından haqq yolundadır. Azrbaycan mülki əhali ilə müharibə aparmır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daim vurğuladığı kimi, "biz öz torpaqlarımızda vuruşuruq, Qarabağ Azəzbaycanındır, Qarabağ Azərbaycandır!" Bu sözlər reallığı diplomatiyanın gedişində də öz əksini tapır. Çünki biz heç bir zaman beynəlxalq hüquqları pozmur və insani dəyərlərə qiymət verərək müharibəmizi aparırıq. Ordumuz doğma torpaqlarımızın azadetmə missiyasını davam etdirir. Azərbaycan xalqı öz haqq mübarizəsini aparır. Torpaqlarımızın azad olunmasında israrlıyıq və bu missiyadan xalqımızı heç kəs döndərə bilməz. Dövlət başçımız, Ali Baş Komandanımız İlham Əliyev cənabları bütün çıxışlarında dönə-dönə bildirib: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bəli, bu gün hər birimiz o tarixi anları yaşayırıq və Liderimizin ətrafında tükənməz ruh yüksəkliyi ilə birləşmişik və hər an canımızdan, qanımızdan keçməyə hazırıq. Qarabağ Azərbaycandır və bayrağımız bütün işğal altından azad olunacaq ərazilərində qürurla dalğalanacaq. Düşmən isə bütün müvafiq qanunlar qarşısında törətdiyi cinayətlərinə görə cavab verəcək, mütləq cavab verəcək. Buna heç kimin şübhəsi olmasın.Bu gün hər bir Azərbaycan vətəndaşı üçün qürurverici haldır ki, Azərbaycan Ordusu üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir və çox tezliklə Azərbaycan bayrağının Qarabağımızın hər bir güşəsində dalğalanacağını görəcəyik! Qələbə bizimlədir! Ulu Tanrı Prezidentimizi, Güclü Ordumuzu, rəşadətli, igid əsgərlərimizi növbəti QƏLƏBƏ SORAĞI İLƏ QORUSUN!

***SEYFƏDDİN ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***



# 17 il =100 ilə...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycanın siyasi tarixinin, əsasən də, müasir müstəqillik tariximizin təməlində Ulu Öndər Heydər Əliyev nəhənginin dayanması faktoru nəinki ölkəmizdə, eləcə də bütün dünyada qəbul edilən danılmaz gerçəklikdir. Məhz Onun 27 il öncə başlatdığı xilaskarlıq missiyasının sayəsində (!) bu gün Azərbaycan dünya miqyasında müasir dünyamızın bütün tələblərinə cavab verən, dinamik tərəqqi edən, sürətli, ardıcıl inkişaf yolu ilə gedən, xüsusilə, qalib ölkə imicini formalaşdıran ölkə, dövlət olaraq tanınmaqdadır. Azərbaycan yalnız dünyanın tərkib hissəsi deyil, Azərbaycan dünyanın mərkəzidir, Azərbaycan artıq dünyanın söz sahiblərindən biridir!***

Hələ Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına etdiyi sonuncu müraciətində övladı, gələcək dövlət başçımız olacaq cənab İlham Əliyevi xalqına, xalqını da Ona əmanət etdi. Bu, həm də o demək idi ki, dühə Heydər Əliyev başlatdığı işlərinin sona çatdırılmasını məhz öz sələfinə - cənab İlham Əliyevə tapşırdı, bu işdə ona ən yaxın köməkçi kimi xalqı gördü, xalqa etimad etdi, necə ki, xalq da Ulu Öndərinə - xilaskarına etimad edirdi. Artıq iqtisadiyyatın gücləndirilməsinin ilk mərhələsi keçilirdi, ordu quruculuğuna start verilmişdi və Azərbaycandan dünyaya, dünyadan isə Azərbaycana doğru qapılar açılırdı. Bir çox beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin icrası yaxın gələcəkdə nəhəng uğurlar, nailiyyətlə vəd edirdi. Ancaq bütün bunlara rəğmən, əsas məsələ - təcavüzkar Ermənistanın torpaqlarımızın 20%-ni işğalda saxlaması, qaçqın və məcburi köçkünlərin pərən-pərən düşüb, ölkəmizin müxtəlif regionlarında həsrət çəkməsi, daha nələr və nələr...

Və burada yenidən Heydər Əliyev fenomeninin kəlamı xatırlanmaya bilinməz. O, vurğulayırdı ki, iqtisadiyyatı olmayan dövlət heç vaxt güclü ola bilməz. Bu gün güclü iqtisadiyyata, sənayeyə, texnologiyalara, peykə və daha nələrə sahib olan ölkəmiz inamla addımlayır, bu addımlarını dünyaya eşitdirir.

Azərbaycanın bu günə qədər gəldiyi enişli-yoxuşlu yollarının başa çatmasında və hamar yola çıxmasında əsas faktorlardan biri də iqtisadiyyatımızın təməlli əsaslara söykənməsi oldu və bunu Ulu Öndər Heydər Əliyevin davamçısı, Prezident İlham Əliyev etdi. Buna qədər isə, Baş nazir, ARDNŞ-in vitse-prezidenti, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Olimpiya Komitəsinin sədri olaraq da fəaliyyətini davam etdirən cənab İlham Əliyev dinamik, çətin, ağır və yorulmaz fəaliyyəti ilə bir istiqamətə doğru getməyi qarşısına məqsəd kimi qoymuşdu - işğaldakı torpaqlarımızın düşmən tapdağından azad etmək ali, müqəddəs və dönməz məqsədini!

Artıq bu gün Ali Baş Komandan olaraq işğalçıya, yağı düşmənə yerini göstərən, rəşadətli Ordu yaradan, Silahlı Qüvvələrinə dünyada nüfuz qazandıran Prezident İlham Əliyev 17 il əvvəl - 2003-cü ilin 15 oktyabrında Prezident seçildikdən sonra başlatdığı bütün işlərinin məntiqi davamı olaraq Qarabağımızı işğaldan azad etmək missiyasını icra edir. Bu gün və hər gün Qarabağ cəbhəsindən gələn qələbə nidaları "Qarabağ Azərbaycandır və nida!" kəlamı ilə isbatlanır, bu gün mənfur, qaniçən, düşmənin kökü elə millətimizin qanını tökdüyü yerdə, Qarabağda qanı axır, sonu çatır. Və bu gün 17 il əvvəl gözlər önündə xəyal kimi canlanan diləklər Qarabağımızda gerçəkləşməkdədir. Deyərdim ki, bu, həm də bir İlahi ədalətdir. Çünki Allah heç vaxt çəkilən zəhmətləri dəyərsiz buraxmır, mükafatlandırır. Prezident, Ali Baş Komandan İlham Əliyevin xələfi Ulu Öndər Heydər Əliyevdən siyasi estafeti aldıqdan sonra çəkdiyi çox ağır zəhmətlər bu gün, məhz 17 ildən sonra öz bolluca bəhrəsini verməkdədir. Əslində, 17 ildə görülən nəhəng işlərin bu qədər qısa zaman kəsimində necə ərsəyə gətirilməsi də bir möcüzədir, heyrətamiz reallıqdır. Amma fakt budur ki, öncə Allahın, sonra isə xalqının yanında üzüağ, başıuca olan LİDER, həm də SƏRKƏRDƏ - cənab İlham Əliyev bütün keçilməz sədrləri, hətta süni yaradılan baryerləri belə əzmlə, qətiyyətlə keçməklə bunu bacardı!

Tarixlərə, əsrlərə söykənən Azərbaycanımızın 17 ilinin yeni və daha böyük əsəri - MÜASİR, GÜCLÜ AZƏRBAYCAN modeli tarix salnaməmizin növbəti səhifəsinə yazıldı. Riyazi dillə ifadə etsək, 17 il =100 ilə...

# Nikol Paşinyan Adolf Hitlerin yolu ilə gedir - ucuz və rüsvayçı ölümə!

***Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoyulduqca, düşmən ölkənin hərbi-siyasi rəhbərliyi siyasi hakimiyyətinin ömrünü uzatmaq üçün əlinə düşən bütün vasitələrdən sui-istifadələr edir.***



SİA xəbər verir ki, işğalçı ölkənin baş naziri Nikol Paşinyan Qarabağ cəbhəsindəki hərbi birləşmələrinin döyüş mövqelərini qoyub-qaçmalarına, işğal olunmuş ərazilərin Silahlı Qüvvələrimiz tərəfindən azad olunmasına dözməyərək, sözün əsl mənasında, faşist Almaniyasının reyx kansleri Adolf Hitlerin yolu ilə getməyə başlayıb. Bir müddət əvvəl İrəvan küçələrində, hətta hərbi xidmətə yaşları çatmayan yeniyetmələri belə zorla Qarabağ cəbhəsinə ölməyə göndərən Paşinyan indi də öldürülmüş yeniyetmə və gənclərə “milli qəhrəman” adlarının verilməsi, habelə orta rütbəli zabitlərə ən yüksək hərbi rütbələrə təqdim olunmaları, digər hərbi mükafatların verilməsi üçün prezidentə və parlamentə təklif irəli sürüb. Maraqlıdır ki, sentyabrın 27-dən başlayan və Azərbaycan Ordusunun şanlı zəfəri ilə müşayiət olunan yürüşdə düşmənin bir çox zabitləri arasında çaxnamşa, cəbhə xəttindən qaçma, fərarilik faktları qeydə alınıb.

Paşinyan məhz Hitlerin yolu ilə gedərək, siyasi hakimiyyətinin son günlərini necə deyərlər, kompensasiyaları ilə ört-basdır etməyə çalışır. Necə ki, Adolf Hitler Berlində, dağılmış Reyxstaq divarları qarşısında yeniyetmələrə ən yüksək “Qızıl xaç” ordenləri, kiçik zabitlərə isə general rütbələri verdirirdi. Hətta faşist Almaniyasının silahlı birləşmələri Stalinqrad cəbhəsində mühasirəyə düşərək, demək olar ki, bütünlüklə məhv olduğu ərəfələrdə Adolf Hitler ac-susuz qalan, heç bir silah-sursatı qalmayan alman əsgərlərinə təyyarələr vasitəsi ilə qida, ərzaq deyil, “Qızıl xaç” ordenləri atdırırdı. Bu kimi vasitələr isə nə onda, nə də sonra Almaniya ordusuna heç bir səmərə vermədi və məğlubiyyətləri qaçılmaz oldu. Çünki məğlub orduda ruh da olmur və hazırda işğalçı Ermənistanın silahlı qüvvələri də pərən-pərən düşüb, uduzur, sarsıdıcı zərbələrimiz altında son nəfəsini verir. Paşinyan isə ölkəsinin faşizm ideologiyası ilə idarə edildiyini bu dəfə Hitlersayağı addımları ilə təsdiqləyir. Hansı ki, Ermənistanda faşist cəlladı Njdenin abidəsi ucaldılmışdı, yaxud bu ölkənin dövlət atributikaları belə, faşizmin təbliğindən bəhs edir. Lakin bu abidə də şovinizm, terrorçu düşüncəsi ilə yaşayan erməni hakimiyyətlərinə uğursuzluqdan başqa heç nə vermədi.

İndi isə, Paşinyanın uğursuzluğu göz önündərir və belə davam edərsə, o ideoloji prinsiplərinə sadiq qaldığı Adolf Hilter kimi ya başına güllə vurub, bununla xalqın əlində linç edilməkdən qurtulmalıdır, ya da buna vaxt tapa bilməyib, hiddətli erməni xalqının əlində həyatı ilə vidalaşmalıdır.

***Rövşən RƏSULOV***

# İƏT ölkəmizin haqq işini hər zaman dəstəkləyib

***İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 10-da Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında əldə olunmuş humanitar atəşkəs razılaşmasını pozması və bunun nəticəsində bir çox mülki şəxsin həlak olması və yaralanması ilə bağlı narahatlığını ifadə edib. Təşkilatın bununla bağlı yaydığı açıqlamada deyilir: “Baş Katiblik Azərbaycan Respublikası ilə həmrəy olduğunu bir daha vurğulayır, İslam Əməkdaşlıq Təşkilatının qətnamə və qərarlarını, həmçinin BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrini xatırladaraq, iki ölkə arasında münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında siyasi yolla həllinə çağırır”.***

Əlbəttə ki, hələ müstəqilliymizin ilk illərində erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycanın haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolu qeyd edilməlidir. İslam Əməkdaşlıq Təşkilatı Ermənistanla Azərbaycan arasında torpaqlarımızın 20 faizinin qonşu Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul edilib. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqeyini diqqətdə saxlayaraq İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü”, “Azərbaycana iqtisadi yardımın göstərilməsi” və “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması” adlı qətnamələr qəbul edilib. İƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqq işini hər zaman dəstəkləyib və bu, təşkilat üçün prioritet olaraq qalır. Bu baxımdan İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi bildiyimiz kimi, cari ilin iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində hücumunu, atəşkəsi pozmasını, nəticədə azərbaycanlı əsgərlərin həlak olmasını və yaralanmasını kəskin şəkildə pisləyən bəyanat yaymışdı. İƏT-in Baş Katibliyi İslam Əməkdaşlıq Təşkilatının və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən, münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında sülh yolu ilə həllini dəstəkləyən qərar və qətnamələrini bir daha xatırlatmışdı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu: “Orada 57 ölkə birləşir. Bu, həm haqq-ədalətə verilən, həm də Azərbaycana verilən dəstəkdir. ... Azərbaycan nə qədər çalışır ki, bəzi İslam ölkələri arasında olan hansısa ixtilaflar aradan qaldırılsın, yaxud da yumşalsın ki, ilk növbədə, biz öz evimizdə qayda-qanun, həmrəylik, dostluq yaradaq. Biz gərək, ilk növbədə, müsəlman aləmində birlik yaradaq. Çünki əgər burada birlik olmasa, onda bizim taleyimiz necə olacaq? Müsəlman ölkələri bunu qiymətləndirir. Bütün ölkələr - 57 müsəlman ölkəsi bizi dəstəklədi. Baxmayaraq ki, bu ölkələrin bəzilərində erməni icmaları kifayət qədər böyük imkanlara malikdir. Baxmayaraq, bu ölkələrdə erməni rəsmi orqanları, onların səfirlikləri gecə-gündüz çalışırlar ki, bəzi müsəlman ölkələrini öz tərəfinə çəksinlər”.

Müstəqil Azərbaycan “İslam dünyasının BMT - si” adlandırılan İslam Əməkdaşlıq Təşkilatın fəal üzvüdür. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Azərbaycan 2017-ci ildə “İslam Həmrəyliyi Oyunları”nı qəbul etdi. Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə “İslam Həmrəyliyi İli” elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. Azərbaycanın qədim şəhəri olan Naxçıvan ISESCO tərəfindən İslam mədəniyyətinin paytaxtı elan olundu. Onu da qeyd edək ki, paytaxtımız Bakı da İslam mədəniyyətinin paytaxtı elan olunmuşdu.

27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini hədəf alması, vandalizm əməllərinin daha bir göstəricisidir. Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəşlər yağdırıldı. Çoxlu dağıntılar var, 10 adam həlak olub, 34 nəfər yaralanıb. Onların arasında uşaqlar və qadınlar da var. Gəncədə mülki insanların məskunlaşdığı əraziyə raket hücumu bir daha Ermənistanın günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması onun faşizm xislətini və cinayətkar mahiyyətini bir daha sərgiləyir. Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu 1949-cu il Cenevrə Konvensiyasına və digər beynəlxalq sənədlərə ziddir və Ermənistan bu hərəkətə görə cavab verməli olacaq. Bu gün İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyinin mövcud vəziyyətlə bağlı narahatlığını ifadə etməsi bir daha təşkilatın Azərbaycanın haqlı mövqeyini müdafiə etməsinin daha bir təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan mətbuatı: **Paşinyanın rəqibləri siyasi meydana dəvət olunur**

***Qaqik Sarukyanın həbsdən azad edilməsi üçün Ermənistanda ictimai rəy formalaşıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə “Past” qəzeti yazır.***



Qeyd edilir ki, bütün müxalifət qüvvələri eyni bu fikir ətrafında birləşib. “Mövcud vəziyyətdə parlamentin ikinci ən böyük fraksiyasının lideri, “Çiçəklənən Ermənistan partiyası”nın rəhbəri Qaqik Sarukyanın hələ də həbsdə olmasına erməni cəmiyyəti qıcıqla yanaşır, sosial şəbəkələrdə və ictimai müzakirələrdə ona qarşı tətbiq olunanların aradan qaldırılması tələbi səslənir. Hələ 6 oktyabrda ölkənin 13 partiyası Ermənistan rəhbərinə qarşı qabaqlayıcı tədbirə yenidən baxılması təklifi ilə Respublika Baş Prokuroru Artur Davtyana yazılı müraciət edib.

Ermənilər Sarukyanın bu günlərdə həbsdə saxlanılmasının Ermənistan Respublikası və qondarma Dağlıq Qarabağ Respublikasının maraqlarından irəli gəlmədiyi qənaətindədirlər. Çoxsaylı insanlar, hətta yumşaq desək, Sarukyanın tərəfdarı olmayanlar belə onun həbsdə saxlanılmasına narazılıq ifadə edirlər”, deyə Ermənistana məxsus nəşr yazır.

Xatırladaq ki, Nikol Paşinyan hakimiyyət kürsüsünü ələ keçirdikdən sonra əvvəlki hakimiyyətlə çalışan, hətta ən kiçik əlaqələri belə qalan kadrları hakimiyyət nümayəndələri sırasından dərhal uzaqlaşdırdı. Bununla yanaşı erməni baş nazir önunla eyni fikirdə olmayanları, hətta, Artur Vanesyanın timsalında özü tərəfindən təyin olunan kadrları belə fikir ayrılığı, tabesizlik səbəbindən tamamilə kənarlaşdırdı. Kütlənin narazılığından istifadə edərək, rəngli inqlab adı altında dövlət çevrilişi edən beli çantalı küçə nümayişçisi baş nazir kürsüsündə ona müxalifətdə olan bütün qüvvələrə qarşı repressiyalar həyata keçirməyə başladı. Bunlardan bəziləri, məsələn, Qaqik Sarukyan müxalif fikirli biri olduğu üçün səbəbsiz, əsassız yerə həbs edildi. Dəfələrlə ermənilərin etirazlarına, Sarukyana azadlıq tələbinə, daha doğrusu, Nikolun qanunsuz hərəkətlərinə qarşı çıxmalarına baxmayaraq, özünü demokrat sayan əldəqayırma baş nazir söz azadlığını, insan azadlığını, hüququn, ədalətin aliliyini ayaqlar altına ataraq tələblərə, etirazlara məhəl qoymayıb, Sarukyanı həbsdə saxlamaqda davam edib.

Göründüyü kimi, erməni cəmiyyəti Nikol Paşinyanın uğursuz siyasətinin qurbanına çevrildiyini dərk etməkdədir və istər canlı qüvvə, istərsə hərbi texnika, istərsə də zəbt etdikləri torpaq itgilərinin fərqində olan ermənilər kömək üçün istənilən qüvvəyə, istənilən şəxsə belə üz tutur və yardım umurlar. Bu baxımdan, onsuz da Nikol Paşinyanın vəziyyətə zərrə qədər də təsir imkanının olmasına əmin olan ermənilər Sarukyana, digər müxalifət partiya liderlərinə üz tuturlar. Bir sözlə, Paşinyanın rəqibləri siyasi meydana dəvət olunur. Bu isə nəticə etibarı ilə Nikol üçün sonun başlanğıcı deməkdir. Çünki, Sarukyan Ermənistan baş nazirini hakimiyyəti ələ keçirdiyi ilk günlərdə belə hesaba almırdısa, deməli, onun bu acınacaqlı vəziyyətində ümumiyyətlə, hansı şəkildə onu aradan götürəcəyi zərrə qədər şübhə doğurmur.

***İnam Hacıyev***

# Azərbaycandan dünyaya dövlət-cəmiyyət-din münasibətləri nümunəsi

*"Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik"- Heydər Əliyev*

**Tarixdən məlum olduğu kimi ta qədimlərdən indiyədək Azərbaycanda dini və etnik tolerantlıq hökm sürür. Lakin, Azərbaycanda dini azadlıqların maksimum təmin edilməsi, dövlət tərəfindən dini icmalara qayğı göstərilməsi müsbət məqamlarla yanaşı mənfi tendensiyalara da rəvac verir.**

Yaradılmış şəraitdən sui-istifadə nəticəsində ölkədə təhlükəli təriqətlərin də sərbəst fəaliyyətinə imkan yaranıb ki, bu da cəmiyyətin və dövlətin mənafeləri kontekstində arzuolunan deyil. Əlbəttə, əsas problem getdikcə dinə meylin artmasında yox, dindən siyasi və ideoloji məqsədlər naminə istifadə cəhdlərindədir. Bəs dini azadlıqlar, tolerant mühitin təmin edilməsi vətəndaş cəmiyyəti üçün hansı perspektivlər vəd edir? Bu suala aydınlıq gətirmək üçün əvvəlcə dinin bəşər tarixində roluna və səbəb olduğu proseslərə dair qısa tarixi arayış vermək lazım gələcək.

## Dünya tarixində dini proseslərin qısa icmalı

Dinlərin meydana gəlməsi bəşər övladının öz yaşam kriteriyalarının və canlı aləmlə qarşılıqlı münasibətləri zəminində əxlaqi kodekslərin bərqərar olunması zərurəti ilə şərtlənib. İlkin dövrlərdə dinlər cəmiyyətin həyatını nizama salıb, qayda-qanunları təsbit edib, əxlaqi kriteriyaların bərqərar olunmasını təmin edib.

Lakin etiraf etməliyik ki, sonrakı dövrlərdə dinin kontekstdən çıxarılması nəticəsində onun onun elmi-texniki inkişafa qarşı çıxması, elmi, təhsili, mədəniyyəti və incəsənəti yalnız dini ehkamlar çərçivəsində görmə cəhdləri, orta əsrlərdə Avropada, Yaxın və Orta Şərqdə sivilizasiyanın inkişafına mane olub.

Müasir dünyaya nəzər yetirsək, dinlərlə bağlı mənfi məqamların təkcə tarixdə qalmadığını görürük. Təəssüf ki, XXI əsrdə də inkişaf etmiş dünya din və məzhəb qarşıdurmalarının şahididir. Yaxın və Orta Şərqdə dinin siyasiləşməsi prosesləri, konfessional təəssübkeşlik, dini qarşıdurma və terror aktları, müxtəli din və məzhəb mənsublarının birgə yaşadığı ölkələrdə vətəndaş müharibələri davamlı xarakter alıb.

Fələstində yarım əsrdən çoxdur ki, kiçik fasilələrlə davam edən yəhudi-ərəb müharibəsinin hansı dəhşətli nəticələrə gətirib çıxardığı ortadadır. Əfqanıstanda, Pakistanda, Misirdə və İraqda təriqətlərarası qırğınları və terror aktlarını, Suriyada, Türkiyədə dinçilərin dünyəvi dövlətə qarşı apardıqları mübarizə göz qabağındadır.

Bəzi cəmiyyətlərdə (Yaponiya, Şimali Amerika, Avropa, Rusiya, Çin və s.) dinin mahiyyətinin düzgün dərk edilməsi və onun cəmiyyətin həyatında yerinin dəqiq müəyyən edilməsi həmin cəmiyyətlərdə ümumbəşəri dəyərləri, insan haqlarını, texniki və elmi inkişafı təmin edə bilib. Beləliklə, dünyanın hazırki reallıqlarından yanaşsaq, dinin mahiyyəti kimi rolu da fərqli istiqamətə yönəldilib. Bəzi xarici dairələr dini mənsubiyyət cəhətdən qarşıq əhalisi olan ölkələrdə radikal dini təriqətlərin əli ilə vətəndaş müharibəsi törədirlər.

Azərbaycanda da hələ ötən əsrin 90-cı illərindən başlayaraq dini və etnik qrupları qıcıqlandırmaqla ölkədə dini qarşıdurma yaratmağa çoxsaylı cəhdlər edilib, amma bu məsələlər dövlət və cəmiyyətin birliyi fonunda ümumilli lider Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində yüksək ustalıqla yoluna qoyulub. Ara sıra belə cəhdlər edilir, lakin ölkə hakimiyyətinin siyasi iradəsi və cəmiyyətin qətiyyətli mövqeyi buna imkan vermir.

## Azərbaycanda dini cəmiyyətdən dünyəvi cəmiyyətə keçid

Tarixə baxsaq, dünyada olduğu kimi, Azərbaycanda da dini ideologiya heç də həmişə tərəqqipərvər və sülhsevər olmayıb. Keçmiş əsrlərdə bu torpaqlarda müxtəlif dinlərin və fəlsəfi cərəyanların tərəfdarları arasında amansız müharibələr baş verib. Nəticədə, milyonlarla günahsız insan məhv edilib. Lakin Azərbaycan xalqı tarixin heç bir dövründə öz dinini əldə bayraq edib heç bir xalqa, dövlətə, dinə qarşı təcavüz etməyib, sülh şəraitində yaşamağa üstünlük verib.

Ötən əsrdə dini cəmiyyət və dövlət formasından dünyəvi cəmiyyət və dövlət formasına keçidin timsalında biz hər iki formasiyanın müqayisəsi imkanını qazanırıq.

XX əsrin əvvəllərinədək Azərbaycan xalqı mövhumat içində yaşayır və elmi, texnoloji, mədəni inkişaf cəhətdən sivil dünyadan xeyli geri qalırdı. Lakin xalqımızın fədakar oğulları- Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Mirə Fətəli Axundov kimi böyük mütəfəkkirlər, Avropada və Rusiyada təhsil alan ziyalılar cəmiyyətin və ölkənin inkişafını elm və təhsildə görürdülər və bunu təbliğ edirdilər. Məhz onların böyük və gərgin əməyi nəticəsində xalqı xurafatdan uzaqlaşdırmaq, təhsilə və mədəniyyətə cəlb etmək işi başladı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra isə, bu iş kütləvi xarakter aldı. Qısa bir zamanda xalqımız elmi-mədəni sahədə böyük inkişaf yol keçdi. XX əsrdə Azərbaycan xalqı dünya elminə, mədəniyyətinə böyük dahilər, alimlər, sənətkarlar verdi.

Sovet İttifaqının dağılması və Azərbaycanın fəaliyyətini müstəqil dövlət kimi davam etdirməsindən sonra, respublikada azad vətəndaş cəmiyyətinin qurulması məqsədilə dini azadlıqlar dövlət tərəfindən təmin edildi. Təəssüf ki, bundan mənfi məqsədlərlə istifadə etmək istəyən, din əvəzinə mövhumatın yayılmasına maraqlı olan qüvvələr peyda oldular. Onların fəaliyyəti nəticəsində bəzi gənclər təhlükəli dini təriqətlərin toruna düşürlər.

## Azərbaycanda dini qarşıdurma üçün əsas varmı?

Dini maariflənmənin zəif olması səbəbindən dinin əsil mahiyyətindən kənara çıxan təriqətlər bir sıra gənclər üçün daha cəlbedici görünür. Belə təriqətlərin əsas məqsədi isə heç də Tanrı və Yaradılışın həqiqi mahiyyəti haqda bilik yaymaq deyil, yalnızca məkrli qlobal mərkəzlərin siyasətinə uyğunlaşmış təhlükəli təlimlərini cəmiyyətin mümkün qədər çox hissəsinə yaymaqdan və kütlələri öz nəzarətlərində saxlamaqdan ibarətdir.

Belə dini qüvvələrin arxasında xarici dövlətlərin kəşfiyyat orqanlarının dayandığı isə heç kimə sirr deyil. Xarici siyasi-ideoloji mərkəzlər səhv yolda olan dini qüvvələrin vasitəsilə cəmiyyətdə parçalanma və qarşıdurmalar yaratmağa cəhd edirlər.

Kritik situasiyalarda bəzi Qərb dövlətlərinin radikal dindarları müdafiə etməsi onların dünyaya elan etdikləri prinsiplərinə zidd getməkdən əlavə, həm də gizli məqsədlərinin nədən ibarət olduğunu görməyə imkan verir. Ərəb ölkələrində baş verənləri bir balaca analiz edəndə məsələ aydın olur.

Azərbaycanda isə bu sahədə vəziyyət sabitdir, dini və ya etnik qarşıdurma üçün heç bir əsas yoxdur. Xalqımız qədimdən gələn multikultural ənənəsini yaşatmaqla həm ölkədə ictimai-siyasi sabitliyin qorunmasında dövlətin siyasətinə dəstək verir, həm də ölkənin bütün vətəndaşlarının respublikanın xoşbəxt gələcəyinin qurulmasına öz töhfəsini verir.

## Azərbaycan cəmiyyətində dinin yeri necə müəyyən edilib?

Bütün dünyaya məlum olduğu kimi, Azərbaycanda dini tolerantlıq hökm sürür. Heç kim dininə və əqidəsinə görə ayrı-seçkiliyə, təzyiqlərə məruz qalmır. Dünyəvi dövlət olaraq müasir, demokratik bir cəmiyyətə malik Azərbaycanda dini azadlıqlar maksimum təmin edilib. Ölkəmiz özünün dövlət-din, cəmiyyət-din münasibətləri modeli ilə dünyanın ən yaxşıları sırasındadır.

Dövlətimiz vətəndaşların vicdan azadlığının qorunması üçün üzərinə düşən bütün vəzifələri qətiyyətlə həyata keçirir. Bunun məntiqi nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri müasir qanunvericilik səviyyəsində tənzimlənir, dini etiqad azadlığı tam qorunur, tolerantlıq daha da möhkəmlənir. Ümumilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev də hər zaman dini dəyərlərə böyük hörmət göstərib və Azərbaycanın dünyada nümunəvi tolerant ölkə imicini qazanmasında əsas roy oynayıb.

Beləliklə, bu gün respublikamızda hər bir vətəndaşın öz dini inancını qoruması, həmin dinin təbliğ edilməsi, dindarların rahat ibadətlə məşğul olma hüquqları Konstitusiya (18, 48-ci maddələr) ilə təsbit edilib və dövlət bu hüquqların təmin edilməsi üçün kifayət qədər optimal siyasət yürüdür. Azərbaycan cəmiyyəti dinin mənəvi dəyərlər sistemi olduğunu və onun siyasətə, dövlət işlərinə və sair bu kimi məsələlərə qarışdırılmamasının vacibliyini dərk edirlər. Bir sözlə Azərbaycanda dini fanatizmə cəmiyyətin münasibəti müsbət deyil.

## Azərbaycanda dövlətin din siyasəti necə qurulub?

1996 və 1997-ci illərdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklər edildi. Dövlət-din münasibətlərində yeni bir mərhələnin əsası qoyuldu, dövlətin din sahəsinə və dindarlara qayğısı artdı. Ulu öndər Heydər Əliyev Azərbaycanda dünyəvi dövlət quruculuğunun davam etdiriləcəyini, eyni zamanda dövlətin milli-mənəvi dəyərlərinin qorunmasına böyük önəm verəcəyini bildirdi: "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik".

Azərbaycanda dövlət tərəfindən dini icmalara böyük diqqət və qayğı da göstərilir. Son illərdə ölkədə dövlət tərəfindən 500-dən yuxarı məscid, onlarla kilsə, sinaqoq və digər məbəd və ziyarətgahlar tikilib və ya yenidən qurulub. Prezident İlham Əliyevin tapşırığı ilə dövlət tərəfindən çox böyük vəsait ayrılaraq Təzəpir məscidinin dünyanın ən zəngin və ən möhtəşəm məscidlərindən birinə çevrilməsi dini dəyərlərə hörmətin hansı səviyyədə olduğunu göstərir.

Hazırda respublikamızda 2000-dən məbəd və ziyarətgah var. Azərbaycanda dini bayramlar ən yüksək səviyyədə keçirilir. Bundan başqa, Bakıda tez-tez dini tolerantlıq və sivilizasiyaların qovuşması mövzusunda beynəlxalq konfranslar təşkil olunur.

Ölkəmizin ali məktəblərindən biri olan Bakı İslam Universitetində və digər universitetlərin ilahiyyat fakültələrində xeyli gənc dini təhsil alır. Bundan başqa, onlarla gənc islam ölkələrinin aparıcı universitetlərində təhsillərini davam etdirirlər.

Əlbəttə, ölkədə dini və ya etnik tolerantlıq ab-havasının saxlanılmasının təmin olunması olduqca vacib məsələdir. Bu amil dövlətçiliyin qorunmasında və inkişafında önəmli rol oynayır. Lakin, dini azadlıq insanların zərərli təriqətləri müdafiə etməsinə səbəb olmamalıdır. Hansısa təriqətə bağlılıq, cəmiyyət və dövlət maraqlarından üstün tutulmamalıdır. Azərbaycançılıq ideyası hər şeydən əvvəldə gəlməlidir.

**Elçin Bayramlı**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliğı" istiqaməti çərçivəsində hazırlanıb.*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 oktyabr



# Neymar Braziliya millisində yeni rekord müəyyənləşdirib



Neymar Braziliya millisində ən çox qol vuran ikinci futbolçu olaraq Ronaldonu geridə qoyub. Belə ki, ötən gün keçirilən Peru-Braziliya (2:4) matçında het-trik edən Neymar yığmada ən çox qol vuran ikinci futbolçu olub. İyirmi səkkiz yaşlı futbolçu 103 oyunda 64 qol vuraraq braziliyalı Ronaldo Nazario-nu da qabaqlayıb.

Qeyd edək ki, dünya kubokunun sahibi Ronaldo 98 oyunda 62 qol vurub. Braziliyalı əfsanəvi futbolçu Pele isə 77 qol ilə hələ də millidə ən çox qol vuran futbolçudur.

# Dibala "Çelsi"yə keçir?



İtaliyanın "Yuventus" klubunun futbolçusu Paulo Dibala karyerasını "Çelsi"də davam etdirə bilər. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, London klubu 26 yaşlı oyunçu ilə maraqlanır. Bildirilib ki, argentinalı yarımmüdafiəçinin özü də uzun müddətdir İngiltərədə oynamaq istəyir. Çünki o, Turin klubundakı mövqeyindən narazıdır. Qeyd olunub ki, bu transfer üçün 80 milyon avro ödənilə bilər. Qeyd edək ki, Dibala ötən mövsüm 46 matçda 17 qol vurub, 8 qolun ötürməsini verib.

# Keçmiş məhkum avtomobil qaçırmağa cəhd göstərib

Gədəbəydə əvvəllər məhkum olunmuş şəxs avtomobil qaçırmağa cəhd göstərib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də Gədəbəy Rayon Polis Şöbəsinə Zəhmət kəndi ərazisindən kənd sakini F.Kərimova məxsus "VAZ-2106" markalı avtomobilin qaçırılmasına cəhd göstərilməsi barədə bağlı məlumat daxil olub.



Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmağa cəhd etməkdə şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş E.Əsgərov saxlanılıb.

Faktla bağlı Gədəbəy Rayon Polis Şöbəsində araşdırma aparılır.

# Soyğunçuluq edən şəxs saxlanılıb

Nəsimi rayonunda soyğunçuluq edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsinə müraciət edən Bakı şəhər sakini A.Mövsümova oktyabrın 13-də saat 20 radələrində S.Vurğun küçəsində bir nəfərin ona zor tətbiq edib içərisində sənəd və bank kartı olan pulqabısını aldığını bildirib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən Bərdə rayon sakini, əvvəllər məhkum olunmuş E.Həsənov müəyyən edilərək saxlanılıb. Faktla bağlı Nəsimi Rayon Polis İdarəsində araşdırmalar davam edir.



# 30 çəlləkdən ibarət ekzotik hotel

Müasir dövrdə ekzotik yerlərdə qeyri-adi hotellərin tikintisi çox dəbdədir. Meksikada Tekila şəhərinin yaxınlığında 30 çəlləkvarı nömrədən ibarət ekzotik hotelin açılması da turizm həvəskarlarının marağına səbəb olub. AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, "Matices Hotel de Barricas", yeni "barrel otel" adını daşıyan otel tez bir zamanda ölkəyə gələn turistlərin sevimli istirahət məskəninə çevrilib. Çəlləklərin hər birində rahat yaşamaq üçün 2 nəfərlik çarpayı, mini bar olan qonaq və vanna otaqları, hətta bəzilərində cakuzi də var. Bundan başqa, bütün nömrələr split-sistem və pulsuz internetlə təchiz edilib.



Maraqlıdır ki, otel tekila içkisi istehsal edən zavodun yaxınlığında yerləşir. Turistlər üçün tez-tez meksikalıların məşhur içkilərinin dadına baxmaq üçün ekskursiyalar da təşkil edilir.

# ŞOK: Ledi Qaqa məşhurluqdan bezib intihar etmək istəyib

Amerikalı ifaçı Ledi Qaqa birdən-birə şöhrət qazanmasının onda intihar düşüncələri yaratdığını deyib. Bu barədə o, CBS News-a müsahibəsində bildirib. 34 yaşlı ifaçının sözlərinə görə, məşhurluğun onun ruhi sağlamlığına təsir etdiyini anlayandan sonra hər gün özünü öldürmək barədə düşünüb. Müsahibə zamanı müğənni sevimli pianosunu göstərib. Onun sözlərinə görə, məşhurlaşandan sonra bu musiqi alətinin onun həyatını məhv etdiyi qənaətinə gəlib, çünki mahnıları onunla yazmışdı, onu Ledi Qaqa edən o idi.



"Tamamilə ümidsizləşdim, məşhur olmaqdan, ulduz olmaqdan nifrət etdim. Özümü yorğun və tükənmiş hiss edirdim", - deyə müğənni xatırlayır. Onun sözlərinə görə, MTV Video Music Awards-ın üç mükafatına layiq görülən "Chromatica" adlı son albomu sayəsində depressiyadan çıxa bilib.

# "Barselona"da daha bir itki

"Barselona" daha bir ciddi itki ilə üzləşib. Qol.az xəbər verir ki, Kataloniya təmsilçisinin yarımmüdafiəçisi Miralem Pyaniç Bosniya və Herseqovina yığmasının düşərgəsində zədələnib. O, UEFA Millətlər Liqasında Polşa ilə səfər oyununda (0:3) sıradan çıxıb. Futbolçu belindən ağır zədə alıb. Oyunu davam etdirə bilməyən yarımmüdafiəçi 33-cü dəqiqədə əvəzlənib.



Qeyd edək ki, "Barselona"da Jordi Alba və Junior Firpo da zədəlidir. Pyaniçin zədəsinin nə dərəcədə ciddi olduğu yaxın günlərdə dəqiq bilinəcək.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600